**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANIN MADDİ MƏDƏNİYYƏTİNDƏ BƏDİİ, MİFOLOJİ XÜSUSİYYƏTLƏR VƏ SİMVOLİK MOTİVLƏR (ENEOLİT-TUNC DÖVRLƏRİ)

İxtisas: 5505.02 – Arxeologiya

Elm sahəsi: Tarix

İddiaçı: **İradə Nizam qızı Avşarova**

elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI– 2023**

Dissertasiya işi Bakı Dövlət Universiteti Tarix fakültəsinin "Arxeologiya və etnoqrafiya" kafedrasında yerinə yetirilmişdir.

Elmi məsləhətçi: tarix elmləri doktoru, professor
**Qüdrət Seyfulla oğlu İsmayılzadə**

Rəsmi opponentlər: Qazaxıstan Milli Elmlər Akademiyasının həqiqi üzvü, tarix elmləri doktoru, professor
**Jaken Kojaxmetoviç Taymaqambetov**

tarix elmləri doktoru, professor
**Maisə Nurbala qızı Rəhimova**

tarix elmləri doktoru, professor
**Vitaliy Vasilyeviç Otroşenko**

tarix elmləri doktoru
**Əsədulla Qüdrət oğlu Cəfərov**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.30 saylı Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor
**Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi: tarix elmləri doktoru,dosent
**İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: tarix elmləri doktoru, professor
**Hidayət Fərrux oğlu Cəfərov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Məlumdur ki, dünyanın qədim sivilizasiya ocaqlarından biri olan Azərbaycanın tarixi-coğrafi əraziləri zəngin arxeoloji irsə malikdir. Ərazidə XIX əsrin sonlarından bu günədək aparılan arxeoloji qazıntılar nəticəsində ibtidai icma quruluşu dövrü tayfalarının dini-ideoloji dünyagörüşləri ilə bağlı geniş tarixi informasiyanı özündə qoruyub saxlayan çox sayda artefaktlar üzə çıxarılmışdır.

Tədqiqat işi Azərbaycan tarixinin xronoloji cəhətdən ardıcıl olan iki mühüm dövrünün – eneolit və tunc dövrü cəmiyyətlərinin arxeoloji irsinin öyrənilməsi ilə bağlı olub, həmin dövrlərdə yaşanmış dini-ideoloji dünyagörüşlərin, mədəni proseslərin, araşdırılması və müxtəlif sənət sahələrində yer almış bədii, mifoloji, semantik xüsusiyyətləri özündə əks etdirən maddi mədəniyyət nümunələrinin tədqiqinə həsr olunmuşdur.

Məlumdur ki, tədqiq olunan dövrlərdə əkinçilik və maldarlığın intensiv inkişafı nüxtəlif sənət sahələrinin, o cümlədən dulusçuluq və metalişləmə sənətinin inkişafına zəmin yaratmışdır. İqtisadiyatın inkişafı nəticəsində əhalinin sosial mədəni həyatında baş vermiş yüksəliş onların dini dünyagörüşlərindən də yan keçməmişdir.

Elə bu səbəbdən də müxtəlif çeşidli məmular üzərində dövrün dini-ideoloji, fəlsəfi baxışlarını özündə yaşadan bədii, mifoloji və semantik təsvirlərə ehtiyac duyulmuşdur. Həmin məlulatlara mifoloji obraz verilməsi və qəbir abidələrin atributlarına çevrilməsi təsadüfü olmayıb, dövrün dini-ideoloji baxışlarına uyğun olaraq, axirət dünyasına yola salınan insanın axirət və işıqlı dünyasını təmin etmək məqsədi güdmüşdür. Dövrün mifoloji obrazlarını və əcdad kultlarını özündə yaşadan bir çox heyvanlar da qəbir abidələrinin atributuna çevrilmişdir, məhs ona görə də mifoloji xüsusiyyətli artefaktların tədqiqi dövrün mədəniyyətlərinin və dini dünyagörüşlərinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir.

Tədqiqat işində Azərbaycan və Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisinin həmdövr abidələrindən əldə olunmuş arxeoloji materiallar tədqiqata cəlb olunmuş, müqaisəli təhlil metodu nəticəsində onların qədim tariximizi özündə yaşatdığı

müəyyən edilmişdir. Eyni zamanda həmin maddi mədəniyyət nümunələrinin yaradıcıları olan insanların dini, mifoloji baxışlarının, əsasən, Cənubi Qafqaz, Mərkəzi Asiya, Yaxın Şərq ölkələrində yaşamış insanların dini-mifoloji baxışları ilə genetik bağlılığı müqayisəli təhlil metoduna əsaslanaraq tədqiq olunmuş, müəyyən edilmişdir ki, əlaqələr və genetik bağlılıq ərazidəki arxeoloji mədəniyyətlərin inkişafına təsirsiz ötüşməmişdir. Elə bu səbəbdən də həmin artefaktların mənşəyinin və mədəniyyətlərin bir-biri ilə varislik bağlılığını üzə çıxarmaq xüsusi tədqiqat tələb edir. Araşdırmalar Azərbaycanın və onun tarixi ərazilərndə yaşamış tayfaların vahid etnik regiona daxil olduğunu təsdiq edir.

Tədqiqata cəlb olunan mifoloyi xüsusiyyətli məmulatlar indiyədək xüsusi tədqiqat mövzusu olmadığı üçün, tədqiq olunan dissertasiya işi bu sahədə ilk addım hesab oluna bilər, bu da tədqiqatın aktuallığını şərtləndirən əsas məsələdir.

Tədqiqatı fərqləndirən cəhətlərdən biri də problemin həllində tarix, fəlsəfə, din və incəsənətin bir-biri ilə qarşılıqlı əlaqəsinin təhlil edilməsi və yeni elmi nəticələrin çıxarılmasıdır. Təqdim olunan tədqiqat işində bu və ya bu kimi problemlərə yeni prizmadan yanaşılmışdır.

Göründüyü kimi, hər bir qədim xalqın mənəvi mədəniyyətinin əsasını təşkil edən mifologiya Azərbaycan xalqının da dini-ideoloji dünyagörüşündə həlledici rol oynamışdır. Bunun nəticəsidir ki, minilliklər boyu qədim cəmiyyətlərin inkişafı zəminində zəngin mifoloji irs yaranmışdır.

Araşdırmalar nəticəsində eneolit və tunc dövrü cəmiyyətlərinin yaşayış yerləri və qəbir abidələrindən əldə olunmuş bəzi mifoloji xüsusiyyətli artefaktların qədim tarixə malik folklor nümunələri ilə bağlılığı üzə çıxarılmışdır. Məhz bu səbəbdən də problemin tədqiqata cəlb olunması qarşımızda duran mühüm məsələlərdən biri sayılır.

Məlum olmuşdur ki, Azərbaycanın qədim cəmiyyətlərində yaşamış insanların buğunki nəsillərə miras qoyub getdiyi bədii, mifoloji irs, əsasən, dövrün dini-ideoloji, siyasi proseslərini əks etdirən abidələrdə izlənilir.

Etiraf etməliyik ki, Azərbaycan xalqının qədim dövrlərə

söykənən mifoloji dünyagörüşünü, adət-ənənələrini, bədii yaradıcılığını, dini-ideoloji təfəkkürünün inkişafını, siyasi-iqtisadi, tarixi-ictimai həyat gerçəkliklərinin səbəblərini öyrənmək soy-kökdə iştirak edən tayfaların tarixini aydınlaşdırmaq deməkdir. Təbii ki, bu çoxşaxəli sosial-fəlsəfi məsələlərin həlli dövrümüzün aktual problemlərindən bir sayılır.

Qədim dövr mifologiyası ilə daha yaxından tanış olduqdan sonra, belə nəticəyə gəlmək olur ki, bəşəriyyətin müxtəlif elm sahələri – ədəbiyyat, fəlsəfə, din və s. öz ilkin başlanğıcını fəlsəfi baxışlara malik olan insanlardan, onların yaratdığı mifoloji irsdən almışdır.

Aparılan tədqiqatlardan məlum olmuşdur ki, dini-fəlsəfi baxışlar qədim cəmiyyətlərdə mədəniyyətlərin özəyini təşkil etməklə yanaşı, bəşər cəmiyyətinin bütün dövrləri üçün aktual olmuşdur

Qeyd etdiyimiz kimi, əldə olunan artefaktlar içərisində mənəvi mədəniyyəti özündə ehtiva edən, yüksək elmi dəyərə malik maddi mədəniyyət nümunələri indiyədək ayrı-ayrı elmi əsərlərdə müəyyən qədər araşdırılsa da, xüsusi tədqiqat mövzusu olmadığı üçün bu dissertasiya işi həmin sahədə ilk addım hesab oluna bilər.

Dissertasiya işində tədqiq olunan mövzu ilə bağlı azərbaycan, rus, türk, ingilis, alman dillərində çox sayda ümümiləşdirilmiş tədqiqat əsərləri monoqrafiya, elmi məqalələr, arxiv materialları öyrənilmiş və təhlil edilmişdir. Onlardan Y.İ. Hummelin "Arxeoloji oçerklər" əsərində[1], İ.M. Cəfərzadənin "Qobustan" (qayaüstü rəsmlər) albomunda[2], C.Ə. Xəlilovun "Qərbi Azərbaycanın tunc dövrü və dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələri

---

[1]Гуммель, Я.И. Археологические очерки / Я.И. Гуммель. – Баку: АН СССР, Азербайджанский филиал Института истории, – Издательство Аз. ФАН СССР, – 1940. – 166 с.

[2]Джафарзаде, И.М. Гобустан (наскальные изображения) / И.М. Джафарзаде. Академия Наук Азербайджанской ССР Институт Истории, – Баку: Элм, – 1973. – 345 с.

(Şamxor və Zəyəmçay hövzələri)" monoqrafiyasında[3], M.A. Hüseynovanın "Şərqi Zaqafqaziya keramikası son tunc və ilk dəmir dövründə (e.ə. XİV-IX əsrlər)" monoqrafiyasında[4], H.P. Kəsəmənlinin "Daşkəsən rayonunun son tunc və ilk dəmir dövrü arxeoloji abidələri" monoqrafiyasında[5], H.F. Cəfərovun "Şimali Azərbaycanda atçılığın və ata sitayişin təşəkkül tapması və inkişafı tarixindən" məqaləsində[6], V.B. Baxşəliyevin "Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti". monoqrafiyasında[7], N.Ə. Müseyiblinin "Gəmiqaya" monoqrafiyasında[8], H.Q. Qədirzadənin "Gəmiqayada həyat ağacı, həyat meyvəsi və keçi kultu məsələsinə dair baxış" məqaləsində[9], F.E. Quliyev "Azərbaycanın kurqan qəbirlərində at dəfni" [10] monoqrafiyasıda və digər tədqiqatlarda Azərbaycan tayfalarının mənəvi mədəniyyəti ilə bağlı elmi mülahizələr yürüdülmüş, nəticələr çıxarılmışdır.

Tədqiqat işində mövzu ilə bağlı məsələlərin araşdırılmasında xidmətləri olan hər kəsin əməyinin nəzərə alınmasına cəhd göstərilmişdir.

Arxeoloji materialların sistemləşdirilməsi və ümumiləş-

---

[3]Xəlilov, C.Ə. Qərbi Azərbaycanın tunc dövrü və dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələri (Şamxor və Zəyəm çay hövzələri) / C.Ə. Xəlilov. – Bakı:– Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, – 1959. – 169 s.

[4] Гусейнова, М.А. Керамика Восточного Закавказья эпохи поздней бронзы и раннего железа (XIV-IX вв. до н.э.) / М.А. Гусейнова. – Баку: Элм, – 1989. – 127 с.

[5]Кесаманлы, Г.П. Археологические памятники эпохи поздней бронзы и раннего железа Дашкесанского района. АН Азербайджана / Г.П. Кесаманлы. – Баку: Агридаг, – 1999. – 179 с.

[6]Cəfərov, H.F. Şimali Azərbaycanda atçılığın və ata sitayişin təşəkkül tapması və inkişafı tarixindən // Azərbaycan Respublikası gənc tarixçilərinin III elmi konfransının materialları, – Bakı: – Elm, – 1995. – s.17-19.

[7]Baxşəliyev, V.B. Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti / V.B. Baxşəliyev. – Bakı: – Elm, – 2004. – 320 s.

[8]Müseyibli, N.Ə. Gəmiqaya / N.Ə. Müseyibli. – Bakı: Çaşıoğlu, – 2004. – 317 s.

[9]Qədirzadə, H.Q. Gəmiqayada həyat ağacı, həyat meyvəsi və keçi kultu məsələsinə dair baxış // – Bakı: Azərbaycan arxeologiyası. Xəzər Universitetinin nəşriyyatı, – 2008. №1-2, – s. 92-101

[10]Quliyev, F.E. Azərbaycanın kurqan qəbirlərində at dəfni / F.E.Quliyev. – Bakı: – Elm, – 2008. – 295 s.

dirilməsi zamanı A.A. İvanovskinin, Z.İ. Yanpolskiinin, S.M. Qazıyevin, O.H. Həbibullayevin, M.M. Hüseynovun, İ. N. Nərimanovun, F.R. Mahmudovun, Q.M. Aslanovun, V.H. Əiyevin, Q.S. İsmayılzadənin, N.M. Muxtarovun, A.Q. Seyidovun, T. M. Dostiyevin, T.R. Əliyevin, S.H. Aşurovun, V.Ə. Mahmudovanın, T.N. Göyüşovanın, M.M. Hüseynovun, Z.C. Hacılının, Ş.N. Nəcəfovun, B.M. Cəlilovun və digər tədqiqatçı alimlərin arxeoloji qazıntılarının nəticələrindən yararlanmışıq.

Tədqiqat zamanı Azərbaycan Dövlət Tarix Muzeyinin, Arxeologiya və Etnoqrafiya Muzeyinin fondunda və ekspozisiyasında saxlanılan arxeoloji eksponatlardan istifadə olunmuşdur.

Mövzu ilə bağlı Türkiyə, Almaniya, İngiltərə, Rusiya, Ukrayna, Türkmənistan, Gürcüstan və digər ölkə tədqiqatçılarının əsərlərindən və elektron mənbələrdən istifadə olunmuşdur.

Göründüyü kimi, tədqiq olunan dövrlərin arxeoloji abidələrinin və maddi mədəniyyət nümunələrinin təhlili ilə bağlı dəyərli elmi əsərlər yazılsa da, promlemin əhatəli şəkildə tam həll olunduğunu söyləmək olmaz.

Tədqiqat işində mövzu ilə bağlı məsələlərin araşdırılmasında xidmətləri olan hər kəsin əməyinin nəzərə alınmasına cəhd göstərilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın əsas obyekti Azərbaycanın bütün bölgələrindən əldə olunmuş eneolit və tunc dövrlərinə aid arxeoloji artefaktların təhlil olunmasıdır. Bölgələrdə və digər ölkələrdə yaşayan türklərin adət və inanclarının mövcud arxeoloji mənbələr, tarixi faktlar, etnoqrafik, folklor materialları əsasında, qarşılıqlı müqayisəli təhlil vasitəsi ilə öyrənilməsi araşdırmanın predmetini təşkil edir.

Tədqiqatın predmeti qismində aşağıdakı məsələlər önə çəkilmişdir: eneolit və tunc dövrlərində ərazidə yaşamış tayfaların dini inanclarının, mifoloji dünyagörüşləri arxeoloji artefaktların köməkliyi ilə müqayisəli təhlil əsasında araşdırılması.

Adət-ənənələrdə, dini dünyagörüşlərində, spesifik və ortaq xüsusiyyətlərin müəyyən edilməsi əsas götürülərək tədqiqat işinin komponentləri kimi diqqət mərkəzində dayanır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işində qarşıya qoyulan əsas məqsəd Azərbaycanın eneolit və tunc dövrü qədim cəmiyyətlərindəki mənəvi mədəniyyəti bərpa etməkdən ibarətdir. Mifoloji xüsusiyyətləri ilə seçilən abidələr və maddi mədəniyyət nümunələrinin türk tayfalarına məxsus ərazilər sisteminə uyğun olaraq, müqayisəli şəkildə müəyyənləşdirilməsi tədqiqat işini şərtləndirən əsas məsələdir.

Məqsədə nail olmaq üçün tədqiqat işində aşağıdakı məsələlərin həlli öz elmi təhlilini və şərhini tapmışdır:

– Azərbaycanın eneolit və tunc dövrü cəmiyyətlərinin arxeoloji tədqiqatlar və yazılı mənbələr əsasında tədqiqi tarixinin qısa icmalını vermək. Azərbaycanın eneolit və tunc dövrü abidələrinin müasir dövrümüzə qədərki tədqiqatlarına nəzər salmaq;

– Ərazidə tədqiq edilmiş arxeoloji abidələr və onlardan əldə olunmuş maddi mədəniyyət nümunələri əsasında eneolit və tunc dövründə yaşamış tayfaların iqtisadiyyatını, dini dünyagörüşlərini, mədəniyyətlərini, incəsənətini araşdırmaq;

– Azərbaycan və onun tarixi torpaqlarında tədqiq olunmuş, eneolit və tunc dövrünə aid abidələr əsasında dövrün qədim insanlarının mənəvi mədəniyyətini özündə yaşadan ibadətgah və qəbirlərdə yer almış dini-ideoloji dünyagörüşləri və səciyyəvi xüsusiyyətləri ön plana çəkmək;

– Tədqiq olunmuş qədim ibadətgahların qonşu ərazilərdə olan oxşar xüsusiyyətlərə malik abidələrlə müqayisəli təhlilini vermək;

– Qaya təsvirlərində mənəvi mədəniyyətlə bağlı olan kompozisiyalarda ayin səhnələrini araşdırmaq, semantik təhlilini vermək;

– Qəbir abidələrinin tarixi torpaqlarımızda və qonşu ərazilərdəki qədim mədəniyyət sistemindəki yerini işıqlandırmaq;

– Qədim cəmiyyətlərdə qəbir abidələrində və dəfn adətlərində dini-ideoloji dünyagörüşləri ilə bağlı olan dəyişikləri xronoloji çərçivəyə uyğun olaraq izləmək. Qəbirlərdə mifoloji xüsusiyyətləri ilə seçilən dəfn adətlərini müəyyən etmək;

– Mədəniyyət və incəsənətin səviyyəsini müəyyən edən daşişləmə, sümükişləmə, dulusçuluq və metalişləmə məmulatlarının

bədii işlənmə üslublarını diqqətə çatdırmaq;

– Maddi mədəniyyət nümunələrinin üzərində yer almış, mifoloji görüşlərin əks olunduğu ornament və təsvirləri təhlilini vermək;

– Azərbaycan, Cənubi Qafqaz və o cümlədən Yaxın Şərq və s. bəzi arxeoloji komplekslərindən əldə olunan çoxsaylı maddi mədəniyyət nümunələrini semantik və mifoloji baxımdan müqayisəli şəkildə təhlil etmək.

**Tədqiqatın metodları.** Tədqiqat işinin metodoloji əsasını təsviri, tarixi-müqayisəli təhlilə söykənən obyektivlik prinsipləri, istinad olunan mənbələrə elmi-tənqidi yanaşma, analiz və sintez` kimi metodlar təşkil edir. Tədqiqat prosesində müqayisəli-tarixi təsvir və nəzəri tipoloji metodlardan istifadə edilməklə yanaşı, problemin öyrənilməsi ilə əlaqədar sistemli müqayisəli təhlil və elmi ümumiləşdirmə metodlarından da geniş istifadə olunmuşdur.

Tarixi təsvir metodu tədqiq olunan dövrlərdə ərazidə baş vermiş tarixi hadisə və həqiqətləri, tarixi prosesin daşıyıcıları olan bəzi tayfalar haqqında qısa məlumatı nəzərə çatdırmaq dissertasiya işinin mahiyyətini dərk etmək üçün vacibdir. Hadisələri təsvir edərkən analiz və sintez, ümumiləşdirmə və nəticə çıxarmaq kimi metodlardan istifadə edilmişdir.

Müqayisəli tarixi və tipoloji təhlilin birinci mərhələsini dövrün tayfalarının dini-ideoloji baxışları ilə seçilən abidələrin araşdırılması və həmçinin səciyyəvi xüsusiyyətli bəzi dəfn adətləri və onların xarakterik xüsusiyyətlərinin açılması təşkil edir.

İkinci mərhələdə obyektivlik prinsipləri, təsviri, tarixi-müqayisəli təhlil, istinad olunan mənbələrə elmi-tənqidi yanaşma, analiz və sintez, ümumiləşdirmə kimi metodlardan istifadə olunmaqla mifoloji, semantik xüsusiyyətləri və bədiiliyi ilə seçilən arxeoloji maddi mədəniyyət nümunələri tədqiqata cəlb olunmuşdur. Arxeoloji mənbələr etnoqrafik təhlil olunmaqla yanaşı, folklor mətnləri əsasında da məzmun xarakterli müqayisələr verilmiş və nəticələr çıxarılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** 1. Dissertasiya işinin mövzusu e.ə. VI minilliyin əvvəllərindən başlayaraq, e.ə. I minilliyə qədər olan böyük tarixi dövrlərlə çərçivələnmişdir.

Tədqiqat işində mifoloji, semantik və bədii xüsusiyyətləri ilə seçilən abidələr nisbi xronoloji çərçivə gözlənilməklə, tapıldığı abidələrin dövrünə uyğun olaraq mərhələli şəkildə araşdırılmışdır.

2. Eneolit dövründə ərazidə məskunlaşmanın artması, əkin sahələrinin genişlənməsi, mal-qaranın çoxalması mübadilə prosesinin inkişafına, insanların rifahının yüksəlməsinə, yeni etnik mədəniyyətlərin yaranmasına və bununla yanaşı, dini dünya-görüşlərinin, fəlsəfi duyumların, o cümlədən animizm, dualizm, fetişizm və s. kimi baxışların geniş şəkildə yayılmasına və inkişafına gətirib çıxarmışdır.

3. Tunc dövrü tayfalarının dini dünyagörüşlərinin zənginləşməsi ərazidə böyük elmi əhəmiyyət kəsb edən "Günəş-Ay-Od" inanclı abidələrin, o cümlədən məbəd və ibadətgahların yaranması ilə nəticələnmiş, "Günəş", "Ay", "Od" kultunun əksi ərazidə yaşamış tayfalar tərəfindən ibadətgahlarda, qəbir abidələrində, qayalar üzərində ifadə olunmuş süjetli kompozisiyaların daxilində, müxtəlif təyinatlı maddi mədəniyyət nümunələri üzərində naxış və təsvir şəklində, bəzən isə fiqurlar formasında öz həllini tapmışdır.

4. Eneolit dövründən fərqli olaraq tunc dövründə qəbir adidələrinin tiplərində və dəfn adətlərində yeniliklər baş vermiş. Tayfada nüfuz sahibi olan insanların – axirət dünyalarını təmin etmək üçün, dəbdəbəli dəfn mərasimləri keçirilir və bu da ərazidə "ölülər kultu" nun əsasının qoyulması ilə nəticələnmişdir.

5. Əcdadlarımızın mezolit dövrü zəminində yaratmış olduğu neolit, eneolit, tunc, dəmir, antik dövr mədəniyyətləri və həmin mədəniyyətlərə aid abidələrdən əldə olunmuş antropoloji və arxeoloji dəlillərin üst-üstə düşməsi, müasir Azərbaycan Respublikasının ərazisində və onun tarixi torpaqlarında yaşamış tayfaların əsasən dolixokefal (kaspi) insan tipinə aid olduğunu, dəfn olduqları qəbir abidələrinin belə (kurqan, daş qutu və s.) onlara aid olduğunu söyləməyə əsas vermişdir.

6. Qobustanın qaya təsvirlərində ilk dəfə olaraq (tədqiq olunan dövrün daş, keramika, metal məmulatları üzərində) şamanizmlə bağlı dini təsəvvürlərin yer alması dəlillərlə sübut olunmuşdur. Apardığımız tədqiqatlar Azərbaycanın qaya təsvirlərində qədim türk tayfaların etiqadlarının geniş yer aldığını göstərmiş, təsvirlərində

şamanların zoomorf və onqon (totemizm) anlayışı ilə əlaqədar müxtəlif süjetli kompozisiyalara rast gəlinmiş, elə bu səbəbdən Qobustan qaya təsvirlərində yer almış bəzi kompozisiyalar yeni prizmadan yanaşılmışdır.

7. Eneolit və tunc dövrlərində ərazidə mifoloji sistemin əsasını kosmoqonik miflərin təşkil etməsi faktlarla sübuta yetirilmişdir. maddi mədəniyyət nümunələri üzəində yeer almış kosmoqonik miflər "ilk insanın yaranışı, "əcdad" kultları, dünyanın yaranışı ilə bağlı olan "üçlük", "dördlük" modelləri kimi təsəvvürlərlə bağlanılır. Tunc dövrü qəbir abidələrinin bir çoxunda "Günəş" və "Ay"a tapınmanı özündə simvollaşdıran dəfn adətlərinə rast gəlinir. Həmin inancın əlamətləri özünü qəbir abidələrində, insanların şüa sistemi şəklində dəfnində, kurqan örtüklərinin "Günəş" və "Aypara" formalı daş düzümümündə və qəbir avadanlığını təşkil edən maddi mədəniyyət nümunələrinin üzərini bəzəyən günəş və ay təsvirlərində tapır.

8. Araşdırmadan məlum olduğu kimi eneolit dövründə əkinçilik təsərrüfatının inkişafı insanların dünyagörüşlərində yeniliklərə səbəb olmuş, məhsuldarlıq kultları ön plana çəkilmiş, neolit dövrü incəsənət ənənələrini özündə yaşadan eneolit dövrü sənətkarları ilahi qadın obrazlarına müraciət etmiş, bu da incəsənətdə ibtidai-mücərrəd heykəltəraşlığın yaranması ilə nəticələnmişdir. Qadın obrazlarında ideoloji baxışları, fəlsəfi duyumları və incəsənəti bir araya gətirən sənətkarlar dövrə xas olan tərzdə, özünə məxsus, mifoloji xüsusiyyəti ilə seçilən Ana obrazını yaradırlar.

9. Arparılan tədqiqatlardan məlum olur ki, qəbir abidələrində və ibadətgahlarda heyvanlara inamın əksi və onlara pərəstiş son tunc-ilk dəmir dövründə daha da güclənmiş, bu da həmin dövrdə hami ruhlara inamla bağlı olaraq qəbirlərin daha da müqəddəsləşdirilməsi ilə nəticələnmişdir.

10. Tədqiqat işində dini-ideoloji və mifoloji xüsusiyyətləri ilə seçilən abidələrin, o cümlədən dini ibadətgahların, qəbir abidələrinin, qaya təsvirlərinin tədqiqi ilə yanaşı, müxtəlif dövrlərin dini inanclarını və fəlsəfi təsəvvürlərini yaşadan arxeoloji maddi mədəniyyət nümunələrindəki obrazlar, qədim dövrlərə söykənən

folklor nümunələrinin personajları ilə ümumiləşdirilərək təhlil olunmuşdur.

Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, eneolit və tunc dövrü tayfalarından bizə miras qalmış bədii təsvirlərin bir çoxu qədim dövrlərdə həm estetik funksiyalar daşımış, həm də ibtidai dini təsəvvürlərlə bağlı yaranmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Araşdırılan mövzunun elmi yeniliyini bir neçə istiqamətdə xarakterizə etmək olar:

1. Azərbaycan arxeologiyasında ilk dəfə olaraq arxeoloji komplekslərdə və maddi mədəniyyət nümunələrində əks olunan mifoloji və dini görüşlər, onların semantik-bədii xüsusiyyətləri, simvolik mənaları ümumiləşdirilərək araşdırılmışdır.

2. Müqayisəli təhlil metodu əsasında mifoloji və dini xüsusiyyətləri özündə yaşadan ibadətgahların, qəbir abidələrinin səciyyəvi və lokal əlamətləri müəyyən olunmuşdur.

3. Azərbaycanın eneolit və tunc dövrü sənət sahələrinin bir çoxunda dini-ideoloji dünyagörüşlərinin mühüm rol oynadığı müəyyən edilmişdir.

4. Eneolit və tunc dövrlərinə aid bəzi dəfn adətlərinin sakral xüsusiyyətləri izlənilmişdir.

5. Azərbaycan Respublikası və tarixi torpaqlarımız olan Qərbi Azərbaycanda XX əsrdə aparılmış arxeoloji qazıntılar zamanı müəyyən edilmiş insan tipinə əsasən ərazinin avtoxton tayfaları haqqında qısa məlumat verilmişdir.

6. İlk dəfə olaraq tədqiqata cəlb olunan artefaktlarda əksini tapmış mifoloji görüşlər geniş şəkildə təhlil olunmuş, semantik xüsusiyyətləri müəyyən edilmiş, mixi yazılı mənbələrdə, qədim dövrlərə söykənən əsatir, nağıl, əfsanə və dastanlarda olan nümunələr arasında müqayisəli təhlil aparılmış və onların Azərbaycan xalqına məxsus olduğu barədə elmi mülahizələr yürüdülmüşdür. Mifoloji görüşləri əks etdirən artefaktların folklor nümunələri ilə müqayisəli təhlili əsasında, Azərbaycan tayfalarına məxsus, unudulmuş qədim miflərin müəyyən hissəsinin bərpa olunmasına cəhd göstərilmişdir.

7. Arxeoloji tədqiqatlar nəticəsində eneolit və tunc dövrləri üçün qəbul olunmuş xronologi çərçivəyə əsasən, e. ə. VI minilliyin

əvvəllərindən başlamış I minilliyədək ibtidai icma quruluşu dövründə mənəvi mədəniyyətdə baş vermiş yeniliklər və dəyişikliklər xronoloji ardıcıllıqla izlənilmişdir.

Tədqiqata cəlb olunan maddi mədəniyyət nümunələrinin bir hissəsi dünyanın bir çox muzeylərində və şəxsi kolleksiyalarda saxlanılır.

Bunu da qeyd etmək lazımdır ki, Azərbaycanın eneolit və tunc dövrü abidələrində aparılmış çoxillik qazıntıların əhəmiyyəti onların yalnız arxeoloji tədqiqində deyil, həm də tədqiq olunan ərazilərdə yaşamış eneolit, tunc dövrü insanlarının mənəvi mədəniyyətinin və ümumilikdə mədəni irsinin öyrənilməsindədir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti ondan ibarətdir ki, əldə olunmuş elmi nəticələr aşağıdakı istiqamətlərdə tətbiq edilə bilər:

–Azərbaycan arxeoloji abidələrində aşkar olunan maddi mədəniyyət nümunələrinin bədii, mifoloji və semantik xüsusiyyətlərinin tədqiqində;

–Çoxcildlik Azərbaycan tarixi və Azərbaycan arxeologiyasının yazılmasında;

–Eneolit və tunc dövrü tayfalarının sənətkarlıq, incəsənət, iqtisadi və mədəni əlaqələrinin elmi şərhində və ümumiləşdirilmiş əsərlərin yazılmasında;

–Ali məktəblərin tarix, filologiya və digər fakültələrin magistratura şöbələrində dərslərin keçirilməsində;

–Elmi-kütləvi nəşrlərin hazırlanmasında.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Uzunmüddətli araşdırmaların nəticəsi olan dissertasiya işi (2009-2019-cu illər ərzində) Bakı Dövlət Universitetinin "Arxeologiya və etnoqrafiya" kafedrasında yerinə yetirilmişdir. Tədqiqatın əsas müddəaları haqqında Respublika, Beynəlxalq miqyaslı simpozium və konfranslarda, həmçinin Bakı Dövlət Universitetinin Tarix fakültəsinin, Azərbaycan Milli Elmlər Akademiyasının "Arxeologiya, Etnoqrafiya və Antropologiya" İnstitutunun elmi-nəzəri seminarlarında məruzələr edilmişdir. Dissertasiyanın əsas məzmunu və tədqiqatın başlıca yekunları mövzuya dair nəşr

olunmuş 27 elmi məqalədə, 9 tezisdə və 1 monoqrafiyada öz əksini tapmışdır. Tədqiqat işinin əsas məqalə və tezisləri müxtəlif beynəlxalq konfransların toplularında, AAK-ın tövsiyə etdiyi xarici ölkə (İngiltərə, Kuba, Rumıniya, Qazaxıstan, Rusiya, Ukrayna, Gürcüstan, Fransa) jurnallarında nəşr olunaraq ictimayyətə çatdırılmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Tədqiqat işi Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Arxeologiya və etnoqrafiya" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın ümumi həcmi.** Dissertasiya işi "Giriş" (19401işarə), beş fəsil (birinci fəsil – 22763 işarə, ikinci fəsil – 49750 işarə, üçüncü fəsil – 58514 işarə, dördüncü fəsil – 38719 işarə, beşinci fəsil –261163 işarə, nəticə – 26853 işarə), "İstifadə edilmiş ədəbiyyat siyahısı" və "Əlavələr"dən ibarətdir (139 şəkil). Ədəbiyyat siyahısı və əlavələr istisna olmaqla dissertasiya işinin ümumi həcmi – 479,953 işarədir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Tədqiqat işinin **"Giriş"** hissəsində qarşıya qoyulan problemin aktuallığı və işlənilmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, tədqiqatın məqsəd və vəzifələri, tədqiqatın metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, tədqiqatın aprobasiyası və tətqiqi, dissertasiyanın strukturu və ümumi həcmi haqqında ətraflı məlumat verilmişdir.

Dissertasiyanın **"Tarixi icmal. Maddi mədəniyyət nümunələrində əks olunan bədii xüsusiyyətlərin və dini-mifoloji baxışların öyrənilmə tarixi"** adlı I fəsl iki paraqrafdan ibarətdir.

I fəslin **"Eneolit və tunc dövrlərinin tədqiqi tarixinin qısa icmalı"** adlanan birinci paraqrafında yazılı və arxeoloji mənbələr haqqında məlumatlar yer alır. Ərazi haqqında Şumer, Aşşur, Babil, Akkad mixi yazılı mənbələrində ərazidə yaşamış etno-siyasi birliklər-lullubilər, kutilər, turukkular və s. tayfa ittifaqlarınında baş verən böyük birləşmələrin varlığı, idarəçilik sistemi və dövlətçilik ənənələri haqqında məlumatlar ön plana çəkilir. Dövlətçilik və güc strukturları haqqında arxeoloji mənbələrdə yer alan abidələr və artefaktlar barədə məlumatlar verilir. Mixi yazılı mənbələr Azərbaycan tarixinin Yaxın Şərq ölkələrinin tarixi ilə sıx şəkildə əlaqəli olduğunu bir daha təsdiqləyir və əsasən Urmiya gölü ətrafındakı əraziləri işıqlandırır.

H.F. Cəfərov uzun illər apardığı arxeoloji tədqiqatların nəticələri əsasında yazır: "Cənubi Azərbaycanda indiki İranın tərkibində olan sinifli cəmiyyətlərin, ilkin "dövlət qurumları" dan olan Aratta, Lullubi, Kuti haqqında məlumatlar Azərbaycan tarixi kitablarında kifayət qədərdir. Lakin eyni sözləri Şimali Azərbaycan haqqında demək olmur. İlkin dövlətlərin təşəkkülünün müqəddəm şərtləri içərisində sosial və mülki bərabərsizliyin yaranması və getdikcə güclənməsi, bir neçə qəbiləni birləşdirən tayfa ittifaqlarının varlığı, tayfa birliyi başçılarının hakimiyyətin bütün qollarını öz əlində cəmləşdirməsi

və s. başqa faktorların sosial-iqtisadi zəminində intişarını nəzərdən qaçırmaq olmaz. Qısa sadalamanın ünsürlərinə Azərbaycanın erkən tunc dövrü abidələrində təsadüf olunmuşdur”.[11]

Arxeoloji və yazılı mənbələrdən məlum olduğu kimi Azərbaycanda və onun tarixi torpaqlarında erkən tayfa ittifaqlarının yaranması, e.ə. III minillikdə Azərbaycanda müxtəlif ad daşıyan dövlət qurumlarının meydana gəlməsi ilə müşahidə olunur. Sosial və mülki bərabərsizliyin yaranması zəminində tayfa ittifaqları getdikcə güclənir, maldarlığın və əkinçiliyin inkişafı nəticəsində tayfa başçıları əllərinə sərvət toplayır, bütün bunların sosial-iqtisadi zəminində intişarı heç şübhəsiz ki, qonşu tayfalarla münaqişələrin artmasına və basqınlara səbəb olmuşdur. İlk dövlət qurumlarından biri olan Aratta ölkəsi Azərbaycanın tarixi torpaqlarında yerləşirdi. Onun ərazisi Urmiya gölünün cənub və cənub-şərq hissələrini əhatə edirdi. Bu ölkə ilə əlaqədar mətnlər (e.ə. III minilliyin I yarısı) bir neçə şumer dastanında əks olunmuşdur.[12]

Aşşur və Urartu mixi yazılarından məlumdur ki, erkən Şumer dövlətləri qədim Azərbaycan (əsasən Urmiya gölü hövzəsi) ərazisi ilə siyasi və iqtisadi əlaqələr yaratmışlar (e.ə. III-I minilliklər).[13]

Elə həmin səbəbdən də ərazidə müdafiə sədləri ilə möhkəmləndirilmiş şəhər qalalar tikilmiş, qala divarları ilə möhkəmləndirilmiş yaşayış yerlərinə ehtiyac duyulmuşdur.

Təbii ki, Azərbaycan və onun tarixi ərazilərində uzun illər aparılmış arxeoloji qazıntılar nəticəsində əldə olunan dəyərli faktlar (tunc dövrü), maddi mədəniyyət abidələri (yaşayış yerləri, ibadətgahlar, qalalar, möhtəşəm kurqanlar, dəfn adətləri və s.),

---

[11] Cəfərov, H.M. İbtidai-icma quruluşu, yoxsa sinifli cəmiyyət // – Bakı: 2006-2007-ci illərdə Azərbaycanda aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunları, – Nafta-Press, – 2007. – s. 41-42.

[12] Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). Ali məktəblər üçün dərslik / – Bakı: «Çıraq» nəşriyyatı, – 2011, c. I, – s. 64-70.

[13] Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). Ali məktəblər üçün dərslik / – Bakı: «Çıraq» nəşriyyatı, – 2011, c. I, – s. 64-70.

maddi mədəniyyət nümunələri (tunc tac, cida başlıqları, tuğ bayraqlar, müxtəlif tip silahlar; cidalar, qılınclar, toppuzlar, xəncərlər, döyüş baltaları və s.), mixi yazılı mənbələrdə olan məlumatlar (ərazidə gedən döyüşlər, əldə olunan qənimətlər), abidələrdə izlənilən sosial bərabərsizlik, güc strukturlarının mövcudluğu, əhalinin sıxlığı (qəbir abidələrində e.ə. II minillikdə sinifli cəmiyyətin yaranması ilə bağlı izlənilən əşyavi dəlillər), sənətkarlığın, incəsənətin, fəlsəfi duyumların yüksək səviyyədə inkişafı (dulusçuluq, metalişləmə sahəsində), təsərrüfatın inkişafı (oturaq əkinçilik və maldarlıq), maddi mədəniyyət nümunələri içərisində təsadüf olunan məişət və dini xarakterli əşyalar, tuğ bayraqlar, müxtəlif tip silahlar, möhürlər, pintaderlərin müxtəlif formalı tokinlərin tapılması ərazinin inzibati idarəetmə strukturlarına malik olduğunu təsdiqləyir. Bu tip arxeoloji mənbələr e.ə. III-II minilliklərdə ərazidə möhkəm tayfa birliklərinin yaranmasından, yüksək mədəniyyət zəminində qurulan şəhər və dövlətlərin olmasından bir daha xəbər verir.

Dissertasiyanın **“Azərbaycanın arxeoloji artefaktlarda əks olunan semantik və mifoloji xüsusiyyətlərin öyrənilmə tarixi”** adlanan I fəslinin ikinci paraqrafında eneolit və tunc dövrü arxeoloji abidələrinin tədqiqində mənəvi mədəniyyət məsələlərində yer almış tədqiqat işlərindən bəhs olunur.

Mənəvi mədəniyyət məsələsinin öyrənilməsində maraqlı elmi dəlilləri ilə seçilən tədqiqatlar içərisində Y.N.Hummelin “Arxeoloji oçerklər” (rus dilində) adlı əsəri, C.Ə.Xəlilovun “Azərbaycandan tapılmış tunc kəmərlər”, R.B.Göyüşovun “Arxeologiya və din” adlı məqaləsi, İ.M.Cəfərzadənin “Qobustan (qayaüstü rəsmlər)”, Q.Q.Aslanovun “Azərbaycanın tunc təbərzin baltaları”, M.A. Hüseynovanın “Şərqi Zaqafqaziya keramikası son tunc və ilk dəmir dövründə (e. ə. XIV-IX əsrlər)”, “Kult əşyaları və hakimiyyət simvolları son tunc və ilk dəmir dövrü abidələrində”, Q.P. Kəsəmənlinin “Daşkəsən rayonunun son tunc və ilk dəmir dövrü abidələri”, V.B. Baxşəliyevin “Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti” adlı əsəri, H.F.Cəfərovun “Şimali Azərbaycanda atçılığın və ata sitayişin təşəkkül tapması və inkişafı tarixindən”, N.Ə. Müseyiblinin “Gəmiqaya” əsəri, H.Q.Qədirzadənin “Gəmiqayada

Həyat ağacı və keçi kultu məsələsinə dair baxış" adlı məqalələri, F.E. Quliyevin "Azərbaycanın kurqan qəbirlərində at dəfni", müəllifin "Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının bədii tunc məmulatı (e.ə. XIV-VII əsrlər)" adlı monoqrafiyaları, o cümlədən "Azərbaycanın son tunc və ilk dəmir dövrü tayfalarının ideoloji baxışları", "Azərbaycanın qədim dövr qadın təsvirləri incəsənət nümunəsi kimi", "Azərbaycanın tunc dövrü tayfalarının hərb işi", "Həyat ağacı" simvolu Azərbaycanın tunc dövrü maddi-mədəniyyət nümunələrində", "Azərbaycanın eneolit və tunc dövrü inanclarında maral kultu", "Qurd obrazı Azərbaycanın tunc dövrü maddi-mədəniyyətində", "Azərbaycanın eneolit və tunc dövrü tayfalarının dini dünyagörüşlərində "Od kultu" izləri", "Azərbaycanın eneolit dövrü dəfn adətlərində izlənilən inanclar", "Öküz (buğa) inancı izləri Azərbaycanın arxeoloji abidələrində", "Qədim Azərbaycan tayfalarının öküz və it dəfnlərində mifoloji xüsusiyyətlər", "Keçi kultu izləri Azərbaycanın arxeoloji abidələrində", "Ölülər kultu və dolixokran tapıntılar (Azərbaycan və onun tarixi ərazilərində aparılmış arxeoloji qazıntılar əsasında)", "Qobustan təsvirlərində şamanizm əlamətləri" adlı məqalələri və s. Azərbaycanın qədim dövr tayfalarının mənəvi mədəniyyətinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir.

Bütövlükdə Azərbaycanın qədim dövr tayfalarının dini-ideoloji dünyagörüşlərinin öyrənilməsində arxeoloji tədqiqatların əhəmiyyəti böyükdür. Göründüyü kimi, qədim tayfaların yaradıcılıq və dini baxışlarının məhsulu olan artefaktlar əsasında aparılan elmi mülahizələr eneolit və tunc dövrü tayfalarının mənəvi mədəniyyətinin dövrümüzə gəlib çatmayan sirlərinin açılmasında əvəzsiz mənbələrdir.

Dissertasiyanın **"Eneolit və tunc dövrü cəmiyyətlərinin dünyagörüşləri və ideologiyasını əks etdirən abidələrin təsnifatı"** adlı II fəsli üç paraqrafdan ibarətdir. **"Eneolit və tunc dövrlərinin bəzi məişət-təsərrüfat abidələri, onların xüsusiyyətləri, yayıldığı ərazilər və onlarda əks olunan ideoloji görüşlər"** adlanan birinci paraqrafda Azərbaycan tayfalarının məişət-təsərrüfat abidələri, onların xüsusiyyətləri və onlarda əks olunan ideoloji dünyagörüşlərindən bəhs olunur.

Məlum olduğu kimi, tikinti insanın ən qədim fəaliyyət sahələrindən biri sayılır. Bunu ərazidə tədqiq olunan çox sayda qədim məskənlərin qalıqları bir daha sübut edir. Ərazidə aparılan arxeoloji tədqiqatlar qədim yaşayış evlərinin necə yarandığı və formalaşdığı barədə dəyərli informasiyanı özündə qoruyub saxlayır.

Bildiyimiz kimi, eneolit dövründə məhsuldar qüvvələrin inkişafı izafi məhsulun yığılmasına və qəbilə quruluşunun çökməsinə zəmin yaratmışdır. Bu proses eneolit dövründə formalaşan evlərinin planlaşdırılmasında da özünü göstərmişdir. Neolit dövrünün geniş icma evinin yerinə artıq öz həyətyani sahəsi və təsərrüfat tikliləri ilə bir ailəyə hesablanmış yaşayış evləri yaranmışdır. Azərbaycan ərazisində Şomutəpə, Qarğalartəpəsi, Töyrətəpə, I Kültəpə, İlanlıtəpə, Leylatəpə və digər komplekslərindəki arxeoloji qazıntılar son neolit və eneolit dövrünndə qədim insanların məskən salmaq düşüncələrinin yüksək səviyyədə olduğunu göstərir. Məlumdur ki, dövrün yaşayış məskənləri əsasən dairəvi üslubda – silindrik və konusvari, bəzən isə düzbucaqlı formada inşa olunurdu. Mesopotamiyanın Xassun (Xassun I), Xalaf (Sammara, Yarımtəpə II), Ubeyd mədəniyyəti abidələrində də dairəvi planlı evlərə rast gəlinir.[14]

Azərbaycanın bölgələrində arxeoloqlar tərəfindən eneolit və tunc dövrünə aid eyni planda inşa olunmuş yüzlərlə yaşayış yerləri tədqiq olunub öyrənilmişdir. E. ə. III minillikdən başlayaraq Azərbaycan ərazində memarlıqda irəliləyiş baş vermiş, protoşəhər tipli yaşayış yerləri və müdafiə memarlığı inkişaf etmişdir.

Bu paraqrafda memarlıq üslubu və tikinti planlaşdırmasında uzun bir yol keçən Azərbaycan tayfalarının memarlıq sənətindən və onun Yaxın Şərqin həmdövr paralellərindən bəhs olunur. Bunun təsdiqi Tovuz rayonu ərazisində tədqiq olunmuş neolit dövrünə aid Göytəpə yaşayış məskənidir. Abidədən əldə edilmiş maraqlı tapıntılar sırasında müdafiə divarlarının qalıqları diqqət çəkir. Sinxron abidələrdə bu cür fortifikasiya qurğuları indiyə qədər tapılmamışdır.[15]

---

[14] Археология зарубежной Азии / Москва: Высшая школа, – 1986. – с. 52-62.
[15] Мещанинов, И. И. Циклопические сооружения Закавказья // ИГАИМК, Ленинград: Печатный двор, – XIII, в. 4-7. – 1932. – с. 14.

Qədim Azərbaycanın son tunc dövrü siklopik tikililəri müdafiə baxımından mühüm əhəmiyyət kəsb edir. Bu memarlıq abidələrinin tikinti üslubu sal daşlardan istifadə olunmaqla inşa olunmuşdur. Ulularımızdan bizə yadigar qalan bu möhtəşəm abidələr zəngin keçmişimizdən xəbər verməklə yanaşı, özündə tariximizin minilliklərini yaşadır.

Ərazidə tədqiq olunan orta və son tunc dövrlərinə aid müdafiə qalalarının bu günə kimi tədqiqi, öyrənilən tarixi dövrlərdə insanlarının heç də sakit həyat keçirmədikləri barədə məlumat verir. Bunu hərbçilərə aid qəbir abidələrində izlənilən at dəfinləri, çox çeşidli silah nümunələri, ikitəkərli döyüş arabaları, üzərində döyüş səhnələri yer almış tunc kəmərlər bir daha sübut edir. Ərazidə inşa olunan müdafiə qalalarının çoxluğu isə yerli tayfaların əmin-amanlıq siyasətini özündə əks etdirir.

II fəslin ikinci paraqrafı **"Azərbaycan ərazisində eneolit, tunc dövrü ibadətgahları və dini-dünyəvi görüşlərlə bağlı maddi-mədəniyyət abidələri"** adlanır. Bu paraqrafda Azərbaycanın eneolit və tunc dövrü tayfalarının dini baxışlarının nəticəsi olan ibadətgahlardan bəhs olunur. Əsas etibarı ilə bu paraqrafda Azərbaycanın tarixi torpaqlarında və qonşu ərazilərdə tədqiq edilmiş ibadətgahlarla paralellər aparılmış, analoji xüsusiyyətlər ön plana çəkilmiş və ərazidə olan qədim ibadətgahların dövrünü müəyyən etməyə cəhd göstərilmişdir. Məlum olduğu kimi, ərazidə tədqiq olunan eneolit və tunc dövrü arxeoloji abidələrində "Günəş-Ay-Od" kultu ilə bağlı inanclar geniş yayılmışdır.

Bunu ərazidə e.ə. V-I minilliklərə aid olunan «Od inamı» ilə bağlı tikilmiş ibadətgahlar bir daha sübut edir.

Göründüyü kimi, odla tanışlıq Azərbaycanın qədim cəmiyyətində böyük dəyişikliklərə səbəb olmuşdur. Həmin dəyişiklərdən biri də ərazidə Oda sitayişlə bağlı məbədlərin tikilməsi idi.

Mövcud cəmiyyətlərdə yaşamış tayfaların Günəş, Ay və Oda tapınmalarını I Kamiltəpə, Qaraköpəktəpə, İlanlıtəpə, Babadərviş, I Maxta, Sərkərtəpə, Sarıtəpə, Urmiya gölü ərazisində yerləşən Həsənli və s. yaşayış yerlərində tədqiq olunan məbədlər sübut edir.

Arxeoloji tədqiqatlar ziyarətgahların nekropollarda da təsadüf

olunduğunu göstərir. Belə ki, Naxçıvanın Pulovdağ nekropolunda ziyarətgah kimi istifadə olunan tikli aşkar olunmuşdu. B.İ. İbrahimli dairəvi planına və daş döşəməsinə görə tiklinin ziyarətgah – Od məbədi olduğu qənaətinə gəlmişdir.[16]

Ön, Orta Asiya və s. ərazilərdə də "Günəş-Ay-Od" məbədlərinə rast gəlinir. Mesopotamiya və Türkmənistan "Günəş-Ay-Od" məbədləri Azərbaycan məbədləri ilə yaxın analogiya təşkil edir. Mesopotamiya, Türkmənistan həm də Azərbaycanda təsadüf olunan bu tip məbədlər öz antropomorf xüsusiyyətləri ilə digərlərindən seçilir.

Mesopotamiya və Türkmənistan məbədləri pılləsiz olub, adi yaşayış evini xatırladır. Həmin məbədlərdə qədim cəmiyyətdə Nəsilartımı ilahəsi və Tanrı – Ana üçün ayinlər keçirilmişdi.[17] Azərbaycan məbədlərində də eyni xüsusiyyətlər izlənir. Azərbaycan ibadətgahları və məbədləri Mesopotamiya və Türkmənistan məbədlərindən quruluşuna görə fərqli olub, pilləli formalıdırlar.

Azərbaycanın Babadərviş, Qaraköpəktəpə, I Maxta, Sərkərtəpə və Sarıtəpə və s. məbəd və ibadətgahları ilə yanaşı Türkmənistan mehrablarının maraqlı, mürəkkəb konstruksiyası və kompozisiya həllinə gəldikdə, onlar keçirilən ritualları, məbədlərin interyerləri isə insanların inanclarını ifadə edən eyni xüsusiyyətli simvolları özündə əks etdirir. Həmin ibadətgah və məbədlərin bəzilərində günəş inancı ilə bağlı olan bütlərin varlığı və özündə günəşi simvolizə edən təsvirlərlə naxışlanması, Ay inancını simvollaşdıran öküz buynuzları və öküzün simvolik təsvirləri ilə işlənməsi, bir daha onların "Günəş-Ay-Od" ibadətgahları və məbədləri olduğunu söyləməyə əsas verir.

II fəslin üçüncü paraqrafı **"Azərbaycan maddi mədəniyyətində şamanizmin əksi"** adlanır. Bu paraqrafda ilk dəfə olaraq Azərbaycanın qaya təsvirlərində şamanizmlə bağlı təsəvvürlərin olduğu haqqında ətraflı məlumat verilir.

---

[16] İbrahimli, B.İ. Naxçıvanın tunc dövrünə aid müqəddəs yerləri haqqında // Azərbaycan arxeologiya və etnoqrafiya elmlərinin inkişafında Naxçıvan məktəbinin rolu. Elmi Konfransın Materialları, – Bakı, Afpoliqraf, – 2014. – s. 83.
[17] Məmmədova, G.H. Qədim və erkən orta əsrlərdə Azərbaycan memarlığı / G.H. Məmmədova, S.X. Hacıyeva. – Bakı: Şərq-Qərb Nəşriyyat Evi, – c.I. – 2013. – s.25.

Belə ki, dövrün inancları ilə bağlı olaraq dəfn zamanı icra olunan rituallarda şübhəsiz ki, əsas rolu şamanlar oynamışlar. İbtidai dini təsəvvürlərə görə, şamanlar tanrılar və dünyasını dəyişmiş insanın ruhu arasında vasitəçi rolu oynayır, axirət dünyasına yola salınan insanın axirət dünyasını, rahatlığını təmin edir, onu bəd ruhlardan qoruyur, yenidən doğulmasına köməklik edirdilər.

İ. Cəfərzadənin bu haqda fikirləri maraq doğurur. O, daş və tunc dövrü qaya təsvirlərində yer almış "ov səhnələri" barədə belə fikrə gəlmişdir: *"Qayaüstü rəsmlərin cəmləşdiyi Qobustan ərazisi sitayiş yeri əhəmiyyəti daşımışdır. Belə ki, dövrün kahinləri tərəfindən çəkilmiş qaya təsvirləri, ibtidai ovsun əlaməti xarakteri daşımaqla yanaşı, dövrün ovçularının həyatı ilə bağlı olub, ovun uğurlu olmasını təmin etmək məqsədi güdmüşdür".*[18]

Şaman təsvirləri yer alan kompozisuyalara Qobustanın Böyükdaş 2, 52, 201 (a), Yazılıtəpə 14, 53 və s. saylı qayaları üzərində rast gəlinmişdir. Magik və kosmoqonik dünyagörüşləri özündə yaşadan həmin təsvirlərdə əllərini yuxarı qaldırmış, kosmik aləmlə əlaqə yaradan şaman və ya şaman dəfi ilə ritual yerinə yetirən, tanrı ilə təmasda olan, ayin icra edən şaman təsvirləri yer almışdır. Bu təsvirlər bir daha ərazinin ritual məkan olunduğu barədə təsəvvür yaradır.

B.İ. İbrahimlinin də bu problem haqqında maraqlı fikirləri vardır: *O, qeyd edir ki, "Gilan çay vadisində aparılmış arxeoloji tədqiqatlar nəticəsində bu problemin həllinə kömək edən kifayət qədər artefaktlar əldə olunmuşdur. Gilan çayın mənbəyinə yaxın yerləşən Gəmiqaya təsvirlərini və onların olduğu ərazini təkcə Naxçıvan bölgəsində yaşayan tayfaların deyil, eyni zamanda Araz çayının orta axırlarında yaşayan bütün qohum tayfaların müqəddəs yeri hesab etmək olar. Qayaüstü təsvirlərin bir çoxu Naxçıvan ərazisində yaşayan qədim tayfaların bizə gəlib çatmayan mifləri ilə bağlıdır. Qayaüstü təsvirlərin yerləşdiyi ərazidə aşkar olunmuş dairəvi tiklilərin bəziləri ibadətgah olmuşdur. Yarımköçəri maldarların yaylaq yeri olan Gəmiqayada müqəddəs ayinlər həyata*

---

[18] Джафарзаде, И.М. Гобустан. Наскальные изображения / И.М.Джафарзаде.– Баку:Элм, –1973. – s. 27.

*keçirilmişdir”.*[19]

Qobustan ərazisində də qaya təsvirlərinin yerləşdiyi yerlərdə Gəmiqayadakı kimi, dairəvi tiklilərə və kromlex əhatəli kurqan qəbirlərə rast gəlinmişdir.[20] Aparılan tədqiqatlar tunc dövrü qaya təsvirlərində qədim türk tayfaların etiqadlarının geniş yer aldığını göstərir. Belə ki, qaya təsvirlərində şamanların zoomorf və onqon anlayışı ilə (totemizm) əlaqədar müxtəlif süjetli kompozisiyalara rast gəlinir. Heç şübhəsiz ki, həmin kompozisiyalar ritualların yerinə yetirilməsi üçün qayalar üzərində öz ifadəsini tapmışdır. Qobustan ərazisindəki qaval daşlar, qurbangahlar da təsadüfi olmayıb, şamanların müqəddəs ayinlər yerinə yetirilməsi üçün nəzərdə tutulmuşdur.

Bəzi tədqiqatçılar şamanizmin köklərini daha qədim dövrlərə neolit və tunc dövrlərinə gedib çıxdığını düşünürlər. Cənubi sibirlilərin professional şamanizm (qədim türk-tuqyu və qədim xakaslar) haqqında ilk yazılı məlumatları bizim eranın VI-VII əsrlərinə aid olunur. Bu da onu deməyə əsas verir ki, Cənubi Sibirdə yaşayan qədim türk xalqları şamanizmdən çox erkən çağlarda bəhrələnmişlər. Sibir xalqlarının ənənəvi dünya görüşlərindən biri olan Şamanizm dünyanı dərk edib və anlamağın əsas forması olmaqla yanaşı, insana kainatın – kosmik aləmin bir parçası kimi baxır.[21]

Bir sıra tədqiqatçılar ritualların keçirildiyini az da olsa qəbul etsələr də, Qobustan təsvirlərinin, sadəcə olaraq, ərazidə yaşayan əhali tərəfindən çəkildiyini iddia edirlər.

Belə ki, keçirilən ritualları özündə yaşadan Qobustan, Gəmiqaya, Abşeron və s. ərazilərimizdəki qaya təsvirləri bu fikirlərin əsassız olduğunu və heç bir elmi dəlilə əsaslanmadığını sübut edir. Hamiya məlumdur ki, ibtidai icma dövrünü yaşamış bir

---

[19] İbrahimli, B. İ. Naxçıvanın tunc dövrünə aid müqəddəs yerləri haqqında / Azərbaycan arxeologiya və etnoqrafiya elmlərinin inkişafında Naxçıvan məktəbinin rolu. Elmi Konfransın Materialları, – Bakı, Afpoliqraf, –2014. – s.82.

[20] Muradova, F.M. Qobustan / F.M. Muradova. – Bakı: Elm, – 1979– s. 12-16.

[21] Шаманизм народов Сибири. Этнографические материалы XVIII-XX вв.: Хрестоматия / Сост., вступ. ст., исслед., прилож., заключ., подбор илл. Т. Ю. Сем. – СПб.: Филологический факультет СПбГУ, 2006. – 664 с. ISBN 5-8465-0424-8.

çox tayfalar, o cümlədən türk tayfaları ibtidai dini dünya görüşlərində şamanizimdən yan keçməmişlər.

Məlum olduğu kimi, şamanizm bəzi türk xalqları arasında bu gün də yaşamaqda davam edən, din formalarından biri sayılır. Göründüyü kimi, Qobustan, Gəmiqaya və s. ərazilərdə təsadüf olunan təsvirlər dini ideyaların məhsulu olmaqla yanaşı, həm də özlərində Azərbaycanın qədim dövr təsviri incəsənətini yaşadır.

Dissertasiyanın **"Eneolit və tunc dövrlərinin qəbir abidələrində əks olunan ideoloji görüşlər və inanclar"** adlanan III fəsli iki paraqrafdan ibarətdir. III fəslin birinci paraqrafı **"Eneolit və tunc dövrlərinin qəbir abidələri və onlarda dini-ideoloji baxışların əksi"** adlanır. Bu fəsildə tədqiq olunan cəmiyyətlərin axirət dünyası ilə bağlı dini dünyagörüşləri yer almışdır. Azərbaycanın qəbir abidələrində aparılan çox saylı arxeoloji tədqiqatlar burada məskunlaşmış tayfalarının dəfn adətlərində animizm, dualizm, fetişizm kimi baxışların mövcud olduğunu göstərir. Ərazi üçün xarakterik olan qəbir tipləri, qəbirlərdə təsadüf olunan antropoloji qalıqlar və artefaktlar həmin dövrdə yaşamış insanların etnik mənsubiyyətini, ictimai, iqtisadi, dini və mədəni həyatını öyrənmək baxımından dəyərli mənbələr sayılır.

Azərbaycanın eneolit dövrü yaşayış yerlərində təsadüf olunan qəbirlərdə, o cümlədən tunc dövrlərinə aid müxtəlif tip qəbir abidələrində – kurqan, daş qutu və torpaq qəbirlərdə çox saydalı arxeoloji tədqiqatlar işləri aparılmışdır. Eneolit dövrü yaşayış yerlərində qeydə alınan qəbir abidələrinin anoloqlarına Türkiyədə, Mərkəzi Asiyada, İranda, Qafqazda və digər ölkələrdə rast gəlinmişdir. Aparılan arxeoloji tədqiqatlardan bəlli olur ki, qəbirlərin bir çoxunda "Günəş-İşıq" əlaməti olaraq, oxradan istifadə olunmuşdur. Sonrakı dövrdə bu ənənəni od əvəz etmişdir.

Tunc dövrü qəbir abidələrində eneolit dövrü dəfn ənənələrinin davamı olaraq, insanın heyvanla birlikdə dəfn etmə adəti daha geniş vüsət almışdır. Tayfalararası dini və mifoloji dünyagörüşlərinin məhsulu olan "ölülər kultu" özünü heyvan basdırılmış qəbir abidələrində izlənilən dəfn mərasimlərində daha çox göstərmişdir. Bu da tunc dövründə ərazidə əcdad kultunun və

dini təsəvvürlərin geniş yayıldığından xəbər verir.

Qəbir abidələrinin tədqiqi bir daha tunc dövründə əmlak və sosial bərabərsizliyin olduğunu göstərir.

Tunc dövrü Məntəş, Borsunlu, Qaracəmirli, Ördəkli, Həsənsu, Bəyimsərov, Sarıçoban və s. kurqanlarda tədqiq olunan tayfa başçılarına aid dəfn adətləri həmin dövrdə güc strukturlarının və dini dünyagörüşlərinin, dəfn adətlərinin yüksək səviyyədə inkişafından və Azərbaycanın Yaxın Şərqlə əlaqələrinin olmasından xəbər verən dəyərli mənbələr hesab olunur.

Ərazidə tədqiq olunan kurqanların müqayisəli təhlili onların lokal əraziyə və analoji xüsusiyyətlərə mənsub olduğunu göstərir. Kurqanların çoxunda arxası üstə basdırımış, dolixokefal kəllə quruluşuna malik insan qalıqlarının əsasən, tayfa başçılarına aid olduğu, onun ətrafında otuzdurulmuş, ona səcdə edən vəziyyətdə dəfn olunanların isə kəllə sümüklərinin dolixokefal və qismən braxakefal tipli insanlara aid olduğu tədqiqat işində əksini tapmışdır. Göygöl, Gəncəçay, Gəncə, Qarabağ, Qərbi Azərbaycan kurqanlarında tədqiq olunmuş qəbir tipləri və dəfn adətlərində oxşar səciyyəvi xüsusiyyətlər izlənilir. Ehtimal ki, həmin dəfn adətləri özündə eyni etno-mədəniyyətin daşıyıcıları olan tayfaların dini dünyagörüşlərini yaşadır.

Artıq göründüyü kimi, ərazidə tədqiq olunan abidələrdə antropoloqların tədqiqatları Azərbaycanın aborigen əhalisinin qədim tipini müəyyən etmişdir.

III fəslin ikinci **paraqrafı "Eneolit və tunc dövrü insanlarının dəfn adətlərində kosmoqonik dünyagörüşləri"** adlanır. İkinci paraqrafında dəfn adətlərində kosmoqonik təsəv-vürlər haqqında məlumatlar yer alır. S.M. Qazıyevə görə dəfn mərasimləri əsasən tayfa və xalqların etnik müxtəlifliyi ilə deyil, onların dini etiqadlarına əsasən bir-birindən fərqlənirdi.[22]

Ölüləri yaşayış yerində basdırılma cəhətinə görə Kültəpə,

---

[22] Qazıyev, S.M.. Qəbələ ərazisinin qədim dəfn mərasimləri haqqında // – Bakı: Azərbaycanın Maddi Mədəniyyəti, – Azərbaycan SSR EA nəşriyyatı, – c. VI. – 1965. – s. 238.

Əli-kömәktәpә, Çalağantәpә abidәlәri Urmiya gölü әrazisindә olan Yanıqtәpә vә Hacıfiruz abidәlәri ilә oxşardır.[23]

Mәsәlәn, eneolit dövrünün bәzi qәbir abidәlәrindә qırmızı oxra izlәrinә rast gәlinir. Dәfn zamanı dünyasını dәyişmiş insanların üzәrinә qırmızı oxranın sәpilmәsi Azәrbaycanda tәdqiq olunmuş eneolit dövrü qәbir abidәlәrinin çoxunda izlәnilir. Bir çox tәdqiqatçılar haqlı olaraq bu tip dәfn adәtini "Günәş" vә "Od"la bağlayırlar. Arxeoloji tәdqiqatlardan mәlumdur ki, Azәrbaycan tayfaları islamı qәbul etmәmişdәn çox әvvәl "Günәş", "Ay"a vә "Od"a" tapınmışdılar. Onlar "Günәşi" dini-mifoloji düşüncәlәrindә "Baş Tanrı" kimi qәbul etmiş, elә hәmin sәbәbdәn eneolit dövründәn başlayaraq günәşlә bağlı müxtәlif ayin vә mәrasimlәr keçirilmiş, ölәn insanları belә bu düşüncәlәrlә dәfn etmiş, dәfn mәrasimlәrindә "Günәş" әlamәti kimi qırmızı rәngdәn istifadә etmişlәr.

Ağdam rayonunun Sarıçoban torpaq kurqanının altında qәbir kamerası vә ümumiyyәtlә, beş qәbirdәn ibarәt olan bütün kompleks düzgün xaç şәklindә tәrtib olunmuşdur.[24]

Aparılan arxeoloji tәdqiqatlar zamanı bәzi qәbir abidәlәrindә "şüa sistemi" şәklindә icra olunmuş dәfn adәtlәrinә dә rast gәlinmişdir. Belә ki, Çilaxan 4 saylı daş qutu qәbrindә kollektiv dәfn adәti qeydә alınmışdır. Qәbrin mәrkәz hissәsindә düzünә uzadılmış vәziyyәtdә gәnc oğlana mәxsus sümüklәr yerlәşdirilmişdir. Qәbirdә tәsadüf olunan dörd insana mәxsus skeletlәr isә ayaqları mәrkәzә doğru-şüa şәklindә, orta hissәdә yerlәşmiş skeletә doğru yönәlmiş vәziyyәtdә, digәr bir skeletә isә oturmuş vәziyyәtdә tәsadüf olunmuşdur. F.İ. Mahmudov bu tip dәfn adәtinә Qarabağın Dovşanlı 2 saylı kurqanında rast gәlindiyini qeyd etmişdir. Xaçın çayın sol sahilindә yerlәşәn hәmin kurqanının (e.ә. XII-XI әsrlәr) örtüyü 3 m. dәrinliyindә süni düzәldilmiş sәki üzәrindә mәrkәzdәn üç istiqamәtdә şüavarı ayrılan üç

---

[23] Mahmudova, V.Ə. Azәrbaycanın ilk oturaq әkinçi-maldar tayfalarının qәbir abidәlәri (b. e. ә. IV-IV minilliklәr) / V.Ə. Mahmudova. – Bakı: Elm, – 2003. – s. 36-37; Mahmudov F.R. Əlikömәk tәpәsindә arxeoloji qazıntıların ilkin yekunları // – Bakı: Daş dövrü vә Azәrbaycanda eneolit.(Elmi әsәrlәrin tematik mәcmuәsi), – Bakı Dövlәt Universiteti nәşriyyatı, – 1984. – s. 62.

[24] Джафаров Г.Ф. Курган эпохи поздней бронзы Сарычобан // – Москва: Российская Археология,– Наука, – 1993. №3, – с. 191-207.

qəbir qeydə alınmışdır.

Sonrakı dövrlərin tədqiqatları, o cümlədən Göy-Göl, Qarabağ və Talış ərazisində təsadüf olunan kurqan və daş qutu qəbirlərdə ibtidai dini təsəvvürlərdən doğmuş eyni tip dəfn adəti, həmin tədqiqatların və nəticələrinin həqiqətə uyğun olduğunu irəli sürməyə imkan verir. Şübhəsiz ki, dövrün inanclarına uyğun olaraq, qeyd etdiyimiz ərazilərdə tədqiq olunmuş qəbirlərdəki şüa sistemli dəfn adəti Günəş inancı ilə bağlı olmuşdur. Dəfnin bu şəkildə icrası, ehtimal ki, ölən insanla iki dünya arasında əlaqə yaratmaq məqsədi daşımışdır.

Belə ki, "şüa" mifik və dini sistemlərdə ən çox yayılmış rəmzlərdən biri olmaqla yanaşı, Azərbaycan və dünya xalqları mədəniyyətlərinin bir çoxunun simvolikasında mühüm yerlərdən birini tutmuşdur.

Ərazidə Ay kultunu özündə simvolizə edən çox sayda kurqan arxeoloqlar tərəfindən tədqiq olunub öyrənilmişdir. Onlardan Çinar-təpə, I Böyük Kəsik, I, II Poylu, Qala yeri, Soyuqbulaq, Zəyəmçay (119 saylı), Daşkəsən (1 saylı), Şəki (Küdürlü 2saylı) , Şəmkir (Keçili 1 saylı), Xaçbulaqda bəzi kurqanların üstünün daş örtüyü, Tovuz rayonunun Tovuzçay nekropolunda 5, 79 və 80 saylı qəbirlərin üstünün daş örtüyü aypara düzümlüdür.

Soyuqbulaq kurqan qəbirlərinin iç örtüklərində qövsvarı, aypara şəkilli daş düzümünə təsadüf olunmuşdur. 5 saylı kurqanda Aypara düzümlərdən altda insan cənub-şərqə doğru sağ böyrü üstə qolları və ayaqları bükülü vəziyyətdə aşkar edilmişdir.

"Günəş", "Ay" və ümumiyyətlə, «Kosmik aləmə» tapınmanın əlamətləri Azərbaycanın neolit, eneolit, tunc, antik dövr memarlıq abidələrinin planlaşdırılmasında da izlənilir. Axirət dünyasına yola salınan insanların üstünə qırmızı boya səpilməsi Azərbaycan tayfalarının eneolit və ilk tunc dövrü dəfn adətlərində yer almış atributlardan biri sayılır.

Tədqiqatlardan məlum olduğu kimi, tunc dövründə Azərbaycanda axirət dünyası ilə bağlı təsəvvürlər o qədər güclü idi ki, artıq bu dövrün tayfaları ölən insanlar üçün müxtəlif tip qəbir abidələri inşa edir və dəbdəbəli dəfn mərasimləri keçirirdilər. Qəbirlərdə dəfn, əsasən, bükülü, otuzdurulmuş vəziyyətdə icra

olunurdu. Belə ki, tunc dövrünün qəbir tiplərindən olan kurqan, daş qutu-kromlex və torpaq qəbirlərdə icra olunan dəfn adətləri maraq doğurmaya bilməz. Sinifli cəmiyyətin yaranması ilə əlaqədar bəzi tayfalarin dəbdəbəli dəfn adətlərinə üstünlük verməsi, tunc dövründə və onun son mərhələsində dəfnlə bağlı adətlərdə kultların geniş yer almasına səbəb olmuş, tunc dövrü tayfalarının animist baxışlarının artması, sonunda qəbirlərin müqəddəs yerə çevrilməsinə gətirib çıxarmışdır.

D. Derjavin dizləri qatlanmış kürəyi üzərində dəfn adətinin Şumer mədəniyyətinə aid olub geniş bir ərazini əhatə etdiyini yazır.[25]

Ümumiyyətlə, tunc dövründə keçirilən dəfn mərasimləri qəbir tiplərindən asılı olmayaraq, əsasən eyni xarakter daşısalarda, mərhumun tayfada tutduğu mövqeyi həmişə önəmli olmuşdur. Tayfa başçılarına aid qəbirlərin dəbdəbəli şəkildə salınması, heç şübhəsiz ki, onun ölümündən sonra ruhunun yaşaması anlamına gəlməklə yanaşı, gücünü saxlaması ilə də əlaqədar olmuşdur.

Dissertasiyanın IV fəsli **“Sənətkarlığın inkişafı və sənətkarlıq məhsullarında dekorativlik”** adlanır. Fəsil dörd paraqrafdan ibarətdir. Bu fəsildə ümumilikdə, eneolit və tunc dövrünə aid olunan sənət sahələrinin inkişafından bəhs olunur, onların dekorativ işlənilmə üsulları və maddi mədəniyyt nümunələri üzərində mifoloji xüsusiyyətlərin rənglər vasitəsi ilə əksi diqqətə çatdırılır. Tədqiqatlar göstərir ki, həmin nailiyyətlərin nəticəsi olan bir çox elementlər zaman-zaman mənəvi mədəniyyətin tərkib hissəsi olaraq - naxışlar və müxtəlif süjetli kompozisiyalar vasitəsi ilə maddi mədəniyyət nümunələri üzərində öz əksini tapmışdır.

Göründüyü kimi, tədqiq olunan qəbir abidələrinin dağlıq və ya düzən ərazilərdə yayılmasından aslı olmayaraq, onların eyni ideoloji dünyagörüşlərdən bəhrələndiyinin şahidi oluruq.

IV fəslin “**Daşişləmə, kult təyinatlı daş fiqurlar, daş əşyalar üzərindəki təsvirlərin interpretasiyası”** adlanan birinci paraqrafında daşişləmə sənətindən və həmin sənət sahəsinin dövrün

---

[25] Державин, В.Д. Курганы эпохи бронзы. у.с. Бутори в Молдавии //– Москва: СА– Наука, – 1976. №2, – с. 118-124.

insanlarının dini dünyagörüşlərində önəmli rol oynadığından bəhs olunur. Bu fəsildə həmçinin türk tayfalarına aid olunan daş bütlər və şamanizmlə bağlı təsvirlər ön plana çəkilir. Belə ki, arxaik daşişləmənin bir sənət növü kimi inkişafı nəticəsində, daş üzərində oyma, yonma, cızma üsulu ilə həkk olunmuş təsvirlər yaranır. Qobustan, Gəmiqaya, Kəlbəcər qayaları üzərindəki təsvirlər məzmununun bədiiliyi ilə diqqəti daha çox cəlb edir.

Azərbaycan ərazisində ilk təsviri sənət əsərləri Qobustanın Böyükdaş qayalarında e.ə. VIII-VI minilliklərə aid abidələrdə qeydə alınmışdır. Qobustan daşişləmə sənəti təkcə qayaüstü rəsmlərlə bitmir. Belə ki, Qobustan kurqanlarının bəzilərində qəbirlərə əşya kimi rəsmli daşlar və daş heykəllər – bütlər də qoyulmuşdur. Həmin kurqanlar içərisində e.ə. III minilliyə aid olunan 3 saylı kurqan maraq doğurur. Kurqanın qərb tərəfində, örtük daşlarının arasında, arxası kromlex daşlarına söykənmiş şaquli vəziyyətdə, uzunsov-yastı, yuxarı hissəsi hər iki tərəfdən yonularaq insan şəklinə salınmış bütə rast gəlinmişdir.[26]

Abşeron rayonunda da kurqanın daş örtüyünün üzərində kişi bütünə rast gəlinmişdir.[27] Göründüyü kimi, həmin dövrdə Qobustanda ritualların da geniş yayılması danılmazdı. Ərazidə tədqiq olunan qəbir abidələri və həmin abidələrdə izlənilən dəfn adətləri bunu bir daha sübut edir.

Qobustan, Abşeron bütləri və qayalar üzərindəki təsvirlər onu sübut edir ki, mövcud cəmiyyətlərin hamısında incəsənət demək olar ki, dinin təbliğatçısı rolunu oynamışdır.

Bir sıra tədqiqatçılar ritualların keçirildiyini az da olsa qəbul etsələr də, Qobustan təsvirlərinin, sadəcə olaraq, çobanlar və ya ərazidə yaşayan əhali tərəfindən çəkildiyini iddia edirlər.

IV fəslin ikinci paraqrafı **“Bədii sümükişləmə sənəti”** adlanır. Bu paraqrafda bədii sümükişləmə sənəti haqqında məlumatlar yer alır. Bildiyimiz kimi, Azərbaycanda arxaik sümükişləmə sənətinin kökləri qədim daş dövrü ilə bağlanır. Eneolit

---

[26] Muradova, F. M. Qobustan. Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutu Arxeologiya və Etnoqrafiya Sektoru. Bakı, Elm, 1979, s. 37-39, 42.
[27] Əliyev, İ.N., Abdullayev F.İ. Naməlum Abşeron. Bakı, Digital Age, 2011, s. 67.

və tunc dövrlərində sümük işləmə sənəti də dulusçuluq, metalişləmə, daşişləmə sənəti kimi Azərbaycan tayfalarının sənət sahələrindən birinə çevrilmişdir. İlk sümükişləmə sənəti nümunələri əsasən əmək alətləri ilə təmsil olunur.

Həmin alətlərə sümük və buynuzdan hazırlanan məmulatlar aid edilir. Onlar arasında müxtəlif əmək alətləri ilə yanaşı, müxtəlif tip məişət və ayin icrası üçün nəzərdə tutulmuş əşyalara da rast gəlinir. Maraqlı tapıntılara sümükdən yonulmuş antropomorf heykəlciklər də aid olunur. Bəzən sümükdən olan əşyalar içərisində üzəri cızma və yonma üsulu ilə işlənmiş maddi-mədəniyyət nümunələrinə də təsadüf olunur. Əsasən asma və əmək alətləri kimi hazırlanan sümük məmulatları öz yerini bəzək əşyalarına verməklə, tunc dövründə kiçik bədii sənətkarlıq sahəsi kimi inkişaf edir. Əldə olunan sümük məmulatların bəziləri dövrün insanlarının dini dünyagörüşləri ilə bağlanılır.

“**Dulusçuluğun inkişafı və bədii tərtibatlı keramikanın yaranmasında müxtəlif texniki üsulların tətbiqi”** adlanan IV fəslin üçüncü paraqrafında eneolit və tunc dövrlərində dulusçuluq sənətinin istehsal sahələri və inkişaf tarixindən bəhs olunur. Dulus kürələri və keramika məmulatları əsasında dulusçuluq sənətinin texniki işlənmə üslubları izlənilir və dulusçuluq sənət nümunələri üzərində yer almış dekorativlik ön plana çəkilir.

Zəngin gil yataqlarının və yüksək istilik verən yanacaq növlərinin varlığı e.ə. V-III minilliklərdən başlayaraq ərazidə dulusçuluğun inkişafına zəmin yaratmışdır. Bu baxımdan dulusçuluq sənəti neolit dövründən fərqli olaraq eneolit və tunc dövrlərində daha da inkişaf etmiş, qədim tayfaların məişət və təsərrüfatında mühüm rol oynamışdır. Aparılan arxeoloji tədqiqatlar göstərir ki, eneolit və tunc dövrlərində dulus kürələrinin tətbiqi dulusçuluq sənətinin daha geniş ərazilərə yayılmasına səbəb olmuşdur. Tədqiq olunan abidələrin bir çoxunda dulus sobalarının qalıqlarına rast gəlinmişdir. Məsələn, təkcə Əliköməktəpə eneolit dövrü yaşayış yerinin qazıntıları zamanı 14 sadə və mürəkkəb quruluşa malik olan dulus kürələrinə təsadüf olunmuşdur.

Eneolit dövrünün sonunda dulus çarxının meydana çıxması nəticəsində dulus çarxlarında hazırlanan keramika məmulatı

istehsalı inkişaf etmiş və qabların səliqəli və effektli görkəmi tunc dövrü sənətkarlığında bədii inkişafa gətirib çıxarmışdır.

II Kültəpənin orta tunc dövrü təbəqəsindən dulusçuluq emalatxanasının qalıqları aşkar edilmişdir. Emalatxanadan mərmərdən hazırlanmış iki daş alət və sümükdən hazırlanmış ucu şiş alətlər və həmçinin, boyalı, boz-qara rəngli cızma və ştamplama üsulu ilə naxışlanmış çox sayda qab qırıqlarına təsadüf edilmişdir.[28]

Ucu şiş sümük alətlərin və cızma naxışlı qabların emalatxanadan əldə olunması, alətlərin qablara naxış vurulmasında istifadə olunduğunu göstərir.

Göründüyü kimi, eneolit və tunc dövrü abidələrində təsadüf olunan dulusçuluq emalatxanaları, dulus kürələri və bu istehsal ocaqlarında təsadüf olunan keramika tullantıları, keramika istehsalında istifadə olunan alətlər bu ərazilərin qədim dövrlərdə Yaxın Şərqin dulusçuluq mərkəzlərindən biri olduğunu bir daha təsdiqləyir.

Dulus çarxının meydana gəlməsi qabların zərif hazırlanmasına şərait yaradır. Elə həmin səbəbdən də dövrün ustaları dulus çarxına salınan qablara müxtəlif formalar verilir, bəzi qabların üzəri cızma naxışlarla bəzədilir və etnikiyin əlaməti olaraq (cızma naxışların içi) ağ anqobla inkrustasiya olunurdu.

Tədqiqatların nəticələrinə əsasən demək olar ki, qədim dövr Azərbaycan sənətkarlarının müxtəlif janr və üslublarda yaratdıqları bədii keramika nümunələri müxtəlif fəlsəfi fikirlərə, dünyagörüş-lərinə malik olan, həyat gerçəkliklərinə, ətrafda baş verən hadisələrə, kainatın sirlərinə fərqli mövqelərdən yanaşan insanların yaradıcılıq dünyasının məhsuludur. Həmin maddi-mədəniyyət nümunələri bir-birindən fərqliliyi, orijinallığı, üslub rəngarəngliyi ilə diqqəti çəkir, eyni zamanda bir çox mifoloji dəyərləri özündə qoruyub saxlayır. Əldə olunan bu sənət əsərlərinin ayrı-ayrılıqda hər birinin öz əhəmiyyəti, öz süjet xətti, öz tarixi vardır.

IV fəslin dördüncü yarımfəsli “**Metalişləmə və bədii metal məmulatlarının hazırlanmasında tətbiq olunan texniki üsullar**” adlanır. Bu paraqrafda ərazidə tədqiq olunan metallurgiyaya aid

---

[28] Əliyev, V.H. Qədim Naxçıvan / V.H. Əliyev. – Bakı; Elm, – 1979. – s. 31-35.

xammal bazaları, bu sahədə əldə olunan yeni texniki nailiyyətlər, haqqında məlumat verilir.

Azərbaycanın qədim metallurgiya mərkəzlərindən biri olduğunu ərazidən aşkar olunmuş e.ə. V-IV minilliklərə aid qədim metalişləmə ocaqları da sübut edir. Bu cəhətdən Leylatəpə yaşayış yeri (e.ə. V-IV minilliklər) Cənubi Qafqazda ən qədim metalişləmə ocağı sayıla bilər. Ərazidə aparılan arxeoloji qazıntılar nəticəsində yaşayış evlərinin birindən metalişləmə ocağı izləri, mərgümüş, nikel qarışıqlı metal qalıqları, dörd tilli bizlər aşkara çıxarılmışdır.[29]

Tunc istehsalı insanların yeniliyə imza atdığı ən böyük nailiyyətlərdən sayılır. II Kültəpədən aşkar olunan metalişləmə kürəsinin qalıqları isə metaləritmə zamanı süni üfürmə texnikasının tətbiq edildiyini göstərir. Süni üfürmədə hərarətin yüksəlməsinə xidmət edən körük ucluqları II Kültəpə, I Maxta, Babadərviş, Mişarçay, Göytəpə və Yanıqtəpədə (Cənubi Azərbaycan-İran) aşkar olunmuşdu. Yüksək hərarətin artması və tənzim edilməsi qədim metallurqların imkanlarını artırmış, yataqların dərinliyində yerləşən sulfidli filizin əldə olunub əridilməsi üçün şərait yaratmışdır.[30]

Azərbaycan ərazisində tədqiq olunan metalişləmə ocaq qurğularının yanında metal tökmədə istifadə olunan gil butələr, gil qəlib nümunələri də tapılmışdır. Artıq tunc dövründə istehsal olunan tunc məmulatların üzərinə müxtəlif texniki üsulların tətbiqi sənətkarlardan uzun müddətli təcrübə və vərdiş tələb etmişdir. Həmin üsulların bəziləri eneolit dövrü sənətkarlarına məlum olsa da, tunc dövrü sənətkarları qədim ənənələrə söykənməklə yanaşı, yeni-yeni üsulların tətbiqi nəticəsində Azərbaycan bədii metalişləmə sənətkarlığına yenilik gətirməklə, bu sənət sahəsini daha da zənginləşdirmişdilər.

Dissertasiyanın V fəsli **"Azərbaycanın arxeoloji irsində əks olunan dini-mifoloji baxışların təsnifatı"** adlanır. Fəsil **yeddi** paraqrafda ifadə olunur. Fəsil Azərbaycanın arxeoloji irsində yer alan qədim cəmiyyətlərin fəlsəfi-mifoloji baxışları ilə bağlanır və

---

[29] Махмудов, Ф.Р., Мунчаев Р.М., Нариманов И.Г. О древней металлургии Кавказа // Ф.Р.Махмудов, Р.М.Мунчаев, И.Г.Нариманов.– М.: СА, –Наука, –1968. № 4, –с. 16.

[30] Seyidov, A.Q. Naxçıvanın qədim metalı / A.Q. Seyidov, Ə. Həsənova. – Bakı: Elm, – 2005. – s. 68.

dissertasiya işinin əsas mahiyyətini təşkil edir.

V fəslin birinci paraqrafı **“Eneolit və tunc dövrü cəmiyyətlərinin arxeoloji irsində semantik və mifoloji dünyagörüşlərinin əksi”** adlanır. Bu paraqrafda dini-mifoloji baxışlar haqqında məlumat verilir. Məlum olduğu kimi, Azərbaycanın arxeoloji irsi minilliklərin yadigarı olmaqla yanaşı, özündə qədim ənənələri qoruyub saxlayır. Tunc dövründə, bəlkə də ondan daha öncə Azərbaycan xalqının formalaşmasında iştirak edən lullubi, kutiturruki və qədim cəmiyyətdə yaşamış digər (adı tarix elminə məlum olmayan) tayfalar ümumazərbaycan qədim irsinə yüksək mifoloji mədəniyyətlərini gətirmişlər. Bildiyimiz kimi, miflər qədim tayfaların fəlsəfi dünyagörüşlərindən doğan mənəvi mədəniyyətlərinin özəyini təşkil edir və bəşər cəmiyyətinin bütün dövrləri üçün xarakterik olmuşdur.

Eneolit dövrü maddi mədəniyyət nümunələrinin üzərində semantik məna daşıyan sadə həndəsi formalı simvolik işarə və naxışlar yer alırdısa, artıq tunc dövründə dini və səma cisimlərini əks etdirən mürəkkəb məzmunlu mifoloji kompozisiyaların yaranmasının da şahidi oluruq. Ümumiyyətlə, Azərbaycan ərazisindən arxeoloji qazıntılar zamanı əldə olunmuş maddi mədəniyyət nümunələrinin dekor motivləri təsadüfi olmayıb, qədim cəmiyyətdə əsrlər boyu inkişaf etmiş mifik düşüncələrə və bədii zövqə müvafiq olaraq yaranmış, sonrakı tarixi mərhələlərdə daha da inkişaf edərək dünya mədəniyyətinə əvəzsiz sənət əsərləri bəxş etmişlər.

Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, eneolit və tunc dövrü cəmiyyətlərindən bizə miras qalmış (maddi mədəniyyət nümunələrinin üzərində yer alan) təsvirlərin bir çoxu qədim dövrlərdə həm estetik funksiyalar daşımış, həm də ibtidai dini təsəvvürlərlə bağlı yaranmışdır.

V fəslin **“Azərbaycanın maddi mədəniyyət nümunələrinin semantik xüsusiyyətləri”** adlanan ikinci paraqrafda ərazidən əldə olunmuş artefaktlar üzərində olan semantik xüsusiyyətlərdən bəhs olunur. Məlum olduğu kimi, eneolit dövrü ornamentlərinin bir qismi neolit ənənələrinə əsaslanır. Təsvirlər dövrün semantikası və mifoloji xüsusiyyətləri ilə bir başa bağlı olub, formalaşmağa doğru

gedən estetik düşüncənin ifadəsi olmaqla yanaşı işarə və naxışlarla verilmiş informasiya mənbəyi də sayıla bilər. Tədqiq olunan dövrlərdə kosmik dünyagörüşləri ilə bağlı təsəvvürlər eneolit dövrü insanlarının dünyagörüşlərinin tərkib hissəsinə çevrilir. Bu özünü maddi mədəniyyət nümunələri üzərində aypara və dairə formalı işarələrdə göstərir. Aypara formalı işarələrə əsasən gil qabların üzərində rast gəlinir. “Nəsilartımı” inamı ilə bağlı olaraq, qablar üzərində “məməcikvari” təsvirlərə də rast gəlinir. “Məhsuldarlıq” inamı ilə bağlı olaraq, qadın heykəlcikləri və gil qablar üzərində sünbülvarı naxış elementlərinə üstünlük verilir. “Üçbucaq” formalı cızma və yonma naxış elementlərinin ilk nümunələrinə eneolit dövrünün əl yapımlı saxsı qabları və qadın heykəlləri üzərində rast gəlinir. Xalkolit dövrü mərhələsinə aid boya ilə işlənmiş qablar üzərində isə romb, paralel və üfüqü xətlərə üstünlük təşkil edir.

V fəslin üçüncü paraqrafında **“Maddi mədəniyyət nümunələrində kosmoqonik dünya görüşlərinin əksi, onların məzmunu və mahiyyəti”** araşdırılmışdır.

Qeyd etdiyimiz kimi, eneolit dövrü qəbir abidələrinin atributuna çevrilmiş günəş inancı, tunc dövründən etibarən, yaşam tərzinin inkişafı zəminində formalaşır. Dini təsəvvürlərdə ayrı-ayrı təbiət qüvvələrinə, səma cisimlərinə sitayiş artır və bunun nəticəsi olaraq ərazidə yaşayan tayfalar bütün təbiət qüvvələrinə, o cümlədən Günəş, Ay və oda daha çox tapınırlar. Qədim tayfaların günəşə, oda tapınmaları dekorativ tətbiqi sənətdə naxış və işarələr formasında yer alır və əsasən, dini ibadətgahlar və bədii məmulatlar üzərində öz ifadəsini tapır.

Kosmoqonik dünyagörüşləri sisteminə daxil olan günəşlə bağlı təsəvvürlər Azərbaycan tayfalarının inanclarında dini amillərdən yaranmış etiqadla əlaqələndirilir. “çərxi-fələk” işarəsi maddi mədəniyyətdə müxtəlif formalarda (dairə, spiral, təkər modelinə bənzər və “çərxi-fələk”) öz ifadəsini tapınır. Günəşi özündə simvollaşdıran qanadlı və qanadsız “çərxi-fələk” işarəsi qədim mifik və dini görüşlərlə əlaqədar olan abidələrdə daha çox yayılan simvollardan sayılır. Qanadlı “çərxi-fələk” işarəsi bəşəriyyətin yaranma simvolu olmaqla yanaşı, fələyin çarxının fırlanmasını da qədim dini təsəvvürlərdə ifadə edir.

Günəşi simvolizə edən təsvirlərə kurqan və kromlexlərin daş düzümündə də rast gəlinir.

Azərbaycan xalqının kosmoqonik baxışlarında Ayla bağlı təsəvvürlər də geniş yer alır. Ay gecə işığı və kişi başlanğıcının təcəssümü kimi şərh edilir. Ay təsvirləri hal-hazırda da türk xalqlarının dini dünyagörüşlərində müqəddəs rəmzlərdən sayılır.

Azərbaycan ərazisində "Ay" kultunun əlamətlərini özündə simvollaşdıran, üzəri və daxili astral elementlə (Ay təsviri ilə) təmsil olunan qəbir abidələri də mövcuddur.

Daş düzümü ilə işlənilmiş "Ay" təsvirli qəbir örtükləri (kurqanlarda) və qəbir kameraları daxilində daşların və qabların aypara düzümü Azərbaycanın son tunc, ilk dəmir və antik dövr qəbir abidələri üçün də xarakterik hesab oluna bilər. Göründüyü kimi, eneolit dövrü qəbir abidələrinin simvoluna çevrilmiş həmin kult, öz kökləri ilə daha qədim dövrlərə söykənir. Belə ki, «Ay kultu» Azərbaycanın eneolit, tunc, dəmir və antik dövrləri üçün daha aktual olub, məzmununu və bəzi hallarda formasını dəyişsə də, sonrakı tarixi dövrdə – islam dini qəbul olunduqdan sonra belə müqəddəs simvollardan biri sayılır.

Arxeoloji abidələrin tədqiqi zamanı "Ay" kultunun Azərbaycan tayfalarının totemist baxışlarına da yol tapdığının şahidi oluruq. Həmin kult müxtəlif təsvir və işarələr vasitəsi ilə heyvan bədənlərinin – əsasən baş və bel nahiyələrində ifadə olunaraq onların bir əcdad kultu kimi kosmik aləmlə bağlılığını özündə simvollaşdırır.

Türk mifologiyasında Dünya məhvəri kimi yer almış "Həyat ağacı" atributları içərisində Ay obrazı da öz ifadəsini tapır. Qədim mifoloji təsəvvürlərdə "Həyat ağacı"nın bir tərəfində Günəş, o biri tərəfində "Ay" tapınır. Ayla bağlı əsatirlər və aypara təsvirli işarələr Azərbaycanın qədim sakinlərinin "Ay"a olan inancları haqqında məlumat verən ən qədim və dəyərli mənbələr sayıla bilər.

Bir çox türk xalqlarının inanclarında, o cümlədən əski uyğurların təfəkküründə "Ay kultu" Oğuz kağanla bağlanır. Dastanda Oğuzun anası Ay qağan, atası isə öküz obrazında yer alır. İnsanın qəhrəman obrazında işıqdan doğulması "Oğuz kağan" dastanında daha çox əksini tapır. Dastanda Oğuz Ay və Öküzün

izdivacından yaranan mifoloji obraz kimi təqdim olunur.

Bu dastanlardakı bağlılıq özünü Azərbaycan ərazisindən əldə olunan maddi mədəniyyət nümunələrinin üzərində aypara buynuzlu öküz təsvirlərində və fiqurlarında göstərir. Bəlkə də, elə həmin səbəbdən tunc dövrü incəsənət nümunələri üzərində yer alan aypara buynuzlu öküz təsvirlərində, öküz inancı ilə müşayiət olunan dəfn adətlərində biz qədim türk – Oğuz tayfalarının əcdad kultu – Oğuz kağanın əlamətləri ilə rastlaşırıq.

Azərbaycanın tunc dövrü artefaktları üzərində beş, altı, yeddi, səkkiz və s. bucaqlı ulduz təsvirləri çoxluq təşkil edir.

Ümumiyyətlə bu təsvirlərin qədim tayfaların həyatında dini və ideoloji əhəmiyyəti böyükdür. Həmin simvollar özündə dövrün tayfalarının kosmik aləmlə bağlı olan simvolikasını yaşadır.

V fəslin dördüncü paraqrafında **“Eneolit və tunc dövrü maddi-mədəniyyətində əcdad kultlarının əksi, onların məzmunu və mahiyyəti”** işıqlandırılmışdır. Bu dövrdə vəhşi heyvanlar, ev heyvanları, quşlar və fantastik məxluqlarla bağlı təsəvvürlər mifoloji dünyagörüşün mühüm tərkib hissəsinə çevrilmişdir. Eneolit dövrü dini dünyagörüşlərində yer almış “Yer kultu” ilə bağlı inanclar təbii ki, qədim tayfaların torpağı əkib-becərməsi ilə bağlı yaranmış və özündə torpaq, məhsuldarlıq, artım ideyalarını birləşdirmişdir.

Qəbir abidələrində və ibadətgahlarda heyvanlara inamın əksi və pərəstiş eneolit, ilk və orta tunc dövründən fərqli olaraq son tuncda daha da güclənir. Elə bu səbəb, həmin dövrdə qəbirlərin müqəddəs yerlərə çevrilməsinə gətirib çıxarır.

Qəbir abidələrində təsadüf olunan əcdad kultu ilə bağlı təsəvvürlər Azərbaycanın eneolit dövrü abidələrindən fərqli olaraq, tunc, dəmir və Antik dövr arxeoloji abidələrində daha geniş şəkildə yer alır. Tayfalar arası dini və mifik inanclarında yayılmış “ölülər kultu” özünü heyvanlara aid qəbir abidələrində izlənilən dəfn mərasimlərində göstərir. Bu da bir daha ərazidə əcdadlar kultunun və dini təsəvvürlərin geniş yayıldığından xəbər verir. Həmin dini təsəvvürlər sonrakı dövrlərin rəssam və sənətkarları tərəfindən maddi mədəniyyət nümunələri və qaya təsvirləri üzərində şamanizmin ifadəsi ilə bağlı müxtəlif süjetli kompozisiyalar, fiqurlar şəklində təmsil olunur. Göründüyü kimi, arxeoloji mənbələr özündə qədim

insanların dini-ideoloji dünyagörüşləri haqqında dəyərli informasiyaları qoruyub saxlayır.

Dissertasiyanın V fəslinin beşinci paraqrafında **“Azərbaycanın qədim maddi mədəniyyətində qadın, kişi kultu və mərasimlər”**lə bağlı tədqiqat yer alır. Qeyd olunduğu kimi eneolit dövründə əkinçilik təsərrüfatının inkişafı məhsuldarlıq kultlarının ön plana çəkilməsinə səbəb olur. Azərbaycan tayfalarının neolit dövrü incəsənəti zəminində yaranmış ibtidai heykəltəraşlıq ənənələrini özündə yaşadan eneolit dövrü sənətkarları anaxaqanlıq dövru üçün səciyyəvi olan dini etiqadlarına sadiq qalaraq incəsənətdə ilahi qadın obrazlarına müraciət edir və qadın obrazlarında ideoloji baxışları, fəlsəfi duyumları və incəsənəti bir araya gətirə bilmiş sənətkarlar dövrə xas olan tərzdə, özünə məxsus, mifoloji xüsusiyyətləri ilə seçilən ana obrazını ön plana çəkirlər.

Tədqiqata cəlb olunan bu tip heykəltəraşlıq nümunələri, ibadətgahlarda keçirilən ayin elementləri olmaqla yanaşı, dövrün tayfalarının mənəvi mədəniyyətin tərkib hissəsi olaraq, məhz qadın heykəlciklərində bir-birini tamamlayır. Onu da qeyd etmək yerinə düşər ki, eneolit dövrü qadın heykəlcikləri dini, mifoloji xüsusiyyətlərə malik olmaqla yanaşı, həm də özündə yaşanan dövrün dini informasiyasını, ideoloji dünyagörüşlərini qoruyub saxlayır.

Ataxaqanlıq dövrünün yaranması artıq tunc dövrü dekorativ tətbiqi sənətində yeni obrazın yaranmasına zəmin yaradır. İncəsənətdə kişi obrazı ön plana çəkilir. Kişiyə pərəstişin nəticəsi olaraq maddi-mədəniyyət nümunələri içərisində ona aid obrazlar daha geniş yer alır.

V fəslin altıncı paraqrafı **“Azərbaycanın maddi mədəniyyətində heyvan kultlarının əksi”** adlanır. Bu paraqrafda qədim cəmiyyətlərdə yaşamış insanların inanclarında yer almış heyvan kultları haqqında məlumat verilir.

Məlumdur ki, tədqiq olunan dövrdə mifoloji xüsusiyyətləri ilə sayılıb-seçilən heyvanlardan biri də öküz olmuşdur. Həmin dövrdə iribuynuzlu heyvanlardan olan öküzdən xış əkinçiliyində qoşqu qüvvəsi və yük arabalarının hərəkətini təmin etmək üçün ilk nəqliyyat vasitəsi kimi istifadə olunması, dövrün əkinçi tayfalarının

əməyini yüngülləşdirmiş, öküzün qüvvəsinə inam, ona olan pərəstiş, sonrakı dövrlərdə artıq insanların təsəvvüründə bu və ya digər heyvanları mifləşməsi ilə nəticələnmişdir.

Eneolit dövrü abidələrində aparılan arxeoloji tədqiqatlar zamanı çox sayda gildən hazırlanmış öküz fiqurlarına təsadüf olunmuşdur.

Öküz inancının təsdiqi özünü qayaüstü petroqliflərində, ibadətgahlarda və s. göstərir. Öküz təsvirləri son tunc dövrü kəmərləri üzərində fantastik obrazlarla verilir. Onlar müxtəlif hərəkət dinamikasında, aypara buynuzlu təsvir olunur. Azərbaycan ərazisindən əldə olunan ocaq qurğularının bir qismi də bilavasitə öküz başı formasında düzəldilmiş və ya öküz buynuzları ilə bəzədilmişdir.

Azərbaycanın Oğuz rayonunda e.ə. XV-XIV əsrə aid kurqanda aparılan qazıntılar zamanı arxeoloq N. Muxtarov tərəfindən qızıldan çox ustalıqla, nəfis şəkildə hazırlanmış hakimiyyət rəmzi olan öküz başı fiquru tapılmışdır. Tədqiqatçı fiqurun ərazidə yaşayan tayfalara aid olduğunu qeyd etməklə yanaşı, ərazidə həmin dövrlərdə dövlətçiliyin və inkişaf etmiş iqtisadi tərəqqinin yüksək səviyyədə olduğu qənaətinə gəlmişdir. Qədim Mingəçevirdən əldə olunmuş öküz başı fiqurunun isə üzərinə qızıldan təbəqə çəkilmişdir. Dovşanlı (Qarabağ), Cənubi Azərbaycan, Qərbi Azərbaycan və s. ərazilərdən əldə olunan eyni xüsusiyyətli cida başlıqlarınında öküzün alnına tək üçbucaq kəsilmişdir[31]. Öküzün alnındakı tək üçbucaq ərazidə yaşamış eyni etnik qrupa aid tayfaların hakimiyyət rəmzini və simvolunu daşımaqla yanaşı, həm də özündə qədim türk tayfalarının inanclarında yer almış “Dünyanın üçlük modeli”ni yaşadır. Üçlük modelində – yuxarı dünya –göy, orta dünya – yer, aşağı dünya isə – yer altı dünya (axirət dünyası) kimi izah olunur. Bu da öküz başı formalı cidaların hakimiyyət rəmzi olduğunu bir daha sübut edir.

Azərbaycan tayfalarının dini dünyagörüşlərində geniş yayılmış öküz dəfni, öküzün baş və ayaqlarının qəbirə qoyulması adətini əcdad kultu ilə bağlmaq daha düzgün olardı.

---

[31] Avşarova, İ. N. Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının bədii tunc məmulatı (e. ə. XIV-VII əsrlər) / Avşarova, İ. N. – Bakı: Nurlan, – 2007. – s. 149; İbrahimov, T. Azərbaycanın qədim heykəltəraşlığı / İbrahimov T. – Bakı: Şərq-Qərb, –2013.–s. 65; Мартиросян, А.А. Армения в эпоху бронзы и раннего железа / Мартиросян, А. А. – Ереван: Издательство АН Армянской ССР,– 1964.– s. 147, tab. XIV.

Azərbaycanın son tunc dövrü dəfn adətlərində öküzün dəbdəbəli dəfninə rast gəlinmişdir. Öküz dəfni ilə müşayiət olunan qəbir E.Resler tərəfindən tədqiq olunmuş 2 saylı Xocalı kurqanından məlumdur. Burada dəfn olunan iki öküzün kəlləsinə tuncdan (qapağı xatırladan) bəzək qoyulmuşdur. Şübhəsiz ki, bu dəfn adəti əcdad kultu ilə bağlı olmuşdur.

Öküzün bədən hissələrinin qəbirə qoyulması adətinə Azərbaycanın bir çox qəbir abidələrində rast gəlinmişdir.

V.A.Kuftin bu tip kurqanları Anadolu və Mesopotamiyanın dəfn adətləri ilə əlaqələndirmişdi. Bir çox yerlərdə, o cümlədən Don sahilində Kostenkada, Kurs yaxınlığında Avdeevdə qazma evlərdə də aparılan arxeoloji tədqiqatlar zamanı, evlərin künclərində muskus qoyun, öküzlərin kəllələrinin basdırılma adətinə rast gəlinmişdi.[32]

Qeyd etdiyimiz kimi, Oğuz türklərinin mifik təfəkkürlərində Oğuz Ay qağan və Öküzün izdivacından yaranan yarı zoomorf obrazda təsvir olunur. Məhz buna görədir ki, Azərbaycan ərazisində olan "Günəş-Ay-Od" məbədlərinin ocaq qurğuları öküz buynuzları ilə, Xocalı-Gədəbəy mədəniyyəti tayfalarına aid olunan tunc kəmərlərin üzəri isə aypara buynuzlu öküz təsvirləri ilə işlənmişdir.

Qədim türklərin mifoloji təsəvvürlərində Oğuz kağan belə təsvir olunurdu: *"Onun ayaqları öküz ayağına, beli qurd belinə, çiyinləri samur, sinəsi isə ayı sinəsinə bənzəyirdi".*

Oğuz kağan göydən yerə sübh işığı içərisində enən kainat qızı ilə evlənir. Bu qız özündə "Yer-su" tanrıçasını simvolizə edir. Oğuz-xaqanın həmin qızla izdivacından üç böyük oğlu – Günəş, Ay, və Ulduz doğulur. İkinci arvadı isə göydən yerə çox güclü mavi işıqla enir. Bu qız özündə Göy – hal və Göy – havanı simvollaşdırır. Bu qızla olan izdivacından isə daha üç oğlu –Göy, Dağ, Dəniz doğulur[33].

Göründüyü kimi, ibtidai təsəvvürlərdə yaranan öküzlə bağlı

---

[32] Куфтин, Б.А. Археологические раскорки в Триалети / Б.А. Куфтин. – Тбилиси, – Изд-во АН Груз. ССР, – 1941; Соколова, З. П. Культ животных в религиях / З. Соколова.– Москва: Наука, – 1972. – с. 40.

[33] Мифы народов мира. Энциклопедия (в двух томах) / – Москва: Советская Энциклопедия, –т. II. –1992. – с. 240.

inancların obrazlı şəkildə tədqiqi, dövrün insanlarının həyat ideyası ilə bağlı fəlsəfi duyumlarının, dini baxışlarının yüksək səviyyədə olduğunu, Oğuz xaqan və onun izdivacından yaranan oğullarının isə türk mifologiyasında əsasən kainatın yaranışı ilə bağlı olan obrazlarda yer aldığını göstərir.

Qədim İran ərazisində yaşayan bir çox tayfaların mifologiyasında ilk insan və əcdad kultu kimi, qəhrəman Qayomərd obrazı yer alır. Onun adı Mərd (Amard) tayfalarının adı və öküz kultu ilə bağlanır. O, Mərd tayfaların əcdadı hesab olunur. Adının etimalogiyası insan-öküzdür. Bu mifoloji obraz Xəzərin iki sahilində, o cümlədən Xorezmdə də tanınır. Onu maldarlıqla bağlı keçirilən rituallarla da əlaqələndirirlər.[34]

Qədim Misir və Şumer mifologiyasında öküz təsvirləri tanrıların yer üzünə zühuru kimi verilirdi. Öküz-buğa təsvirləri e.ə. III-I minilliklərdə qədim Misir, Türkiyə, Mesopotamiya, İran, Mərkəzi Asiya tayfalarının mifoloji düşüncələrində "Ay tanrısı" kimi çıxış etmişdir.[35] Yuxarıda qeyd olunan yazılanlardan göründüyü kimi, Azərbaycan tayfaları da öküzə "Ay tanrısı" kimi sitayiş etmişdir.

Bütün sadalananların təsdiqi  özünü İçəri şəhərin XII əsrə aid olunan qoşa qala qapısı üzərindəki barelyefdə tapır. Barelyefdə müqəddəs öküz başı, onun üzərində "Ay", "Günəş", sağ və sol tərəfində isə müqəddəs öküzü qoruyan iki şir təsvirinə rast gəlirik. Tunc dövründən minilliklər keçməsinə baxmayaraq, XII əsr qoşa qala qapısı üzərindəki barelyefdə biz ənənənin davamı kimi hakimiyyət və əcdad kultu olan müqəddəs öküz başının təsviri və onun atributu sayılan "Ay" və "Günəş"lə yenə də üzləşirik.

Azərbaycan xalqının dini dünyagörüşlərində və dəfn adətlərində it kultu ilə bağlı inanclar da geniş yayılmışdır. İtin təsvirləri çəkilmiş və fiqurları hazırlanmışdır.

Bildiyimiz kimi, ərazidə it kultu ilə bağlı olan dəfn adətlərinə

---

[34] Ельницкий, Л. А. Скифские легенды как культурно-исторический материал // –Москва, – Советская Археология, –Наука, – 1970, № 2, – с. 69.

[35] Мифы народов мира. Энциклопедия (в двух томах) / – Москва: Советская Энциклопедия, – т. I. – 1991. – с. 203.

də çox rast gəlinir. Naxçıvanın I Kültəpə yaşayış yerinin eneolit dövrü təbəqəsində tədqiq olunan qəbirlərin ikisində insanın ayağının yanında it dəfninə rast gəlinmişdir.

Tunc və antik dövrdə yaşamış Azərbaycan tayfaları da dəfn adətlərində it dəfninə bir kult əlaməti kimi önəm vermişlər. Ənənənin davamı olaraq, sonrakı dövrlərin qəbir abidələrində də dəfn olunan insanın ayaqlarının yanında it skeletinə rast gəlinmişdir.

Türk xalqları mifologiyasında qurd əsas obrazlardan biri sayılır. Boz qurd və sadəcə qurd kimi təqdim olunan bu obraz türk xalqlarının dünyagörüşlərində əcdad, totem səviyyəsinə qaldırılmışdır. Göytürklərin Kültigin haqqındakı yazılarında belə deyilir: *"Yuxarıda mavi göy, aşağıda qara yer yaradıldıqda, hər ikisinin arasında insan oğlu yarandı. İnsan oğlanlarının üzərində mənim babalarım Bumin kağan, İstəmi kağan hakim oldular». Buminin əcdadları isə qurddan törəmişlər".*[36]Bu da ilkin əcdadların totemlə bağlılığı ilə izah olunur

Maddi mədəniyyət nümunələri arasında qurd inancı ilə bağlı təsvirlərə çox rast gəlinir. Belə ki, özündə qurd totemini simvollaşdıran (son tunc və ilk dəmir dövrü) tunc kəmər Qazax rayonu ərazisində aparılan arxeoloji qazıntılar zamanı əldə edilmişdir.

Yuxarıda qeyd olunduğu kimi, Oğuz birləşmiş qəbilələrin baş onqonu olduğuna üçün, onda bəzi qəbilələrin onqonlarının əlamətləri öz əksini tapmışdır. Şübhəsiz ki, qədim türklərin "qurd" saydıqları əcdadları kosmoqonik kultlarla əlaqəli şəkildə formalaşan əcdad kultu olmaqla yanaşı, həm də, bu kultun köməkliyi ilə dövrün tayfaları quraqlığın qarşısını almaq məqsədi güdmüşlər. Oğuz haqqında əfsanədə – dastanda qurd Oğuza təqdim olunarkən, göydən şüanın içində gəlir və çətin vaxtlarda Oğuza kömək edir. O, Oğuzun ordusunun qarşısına keçir, onları ağır yollardan keçirir. Qurdun şüa ilə əlaqəsi, çox maraqlı mifoloji hadisədir. Oğuz kağanın oğlu Dəniz xanın onqonu da göydən işıq içində enən mavi qurddur.

---

[36] Hüseynoğlu, K. Mifin mənşəyi, mahiyyəti və tipologiyası/ Hüseynoğlu K. – Bakı: Elm və Təhsil, –2010, –s. 49.

Türkdilli xalqlarda, o cümlədən Azərbaycan türklərinin inanclarında qurd və aslan günəşin rəmzi, heyvan təcəssümü idi.[37] Göründüyü kimi Oğuz obrazı yarı totem, yarı ilahidir.

"Dədə Qorqud" dastanında da oğuzlardan onların əcdadlarının kim olduğunu soruşduqda, onlar əminliklə deyirlər: şir, qurd, öküz, at, maralın nəsliyik. "Dədə Qorqud" dastanında qurdala bağlı təsəvvürlər öz əksini tapır. Dastanın Qazan xanın evinin yağmalanması boyunda belə deyilir: *"Sudan keçdi və bu kəs bir qurda tuş oldu. Qurd üzü mübarəkdir, qurdla bir xəbərləşim dedi, görəlim xanım nə xəbərləşdi; Qazan aydır. Ordumun xəbərini bildirmisən, degil mana! Qara başım qurban olsun qurdum sana!".*[38]

Mifologiyada simasını dəyişmiş obrazlardan biri də keçidir. Bildiyimiz kimi, keçi Azərbaycan xalqının mifologiyasında nəsil artımı ideyası ilə bağlıdır. Elə həmin səbəbdən də keçi tanrılar və mifoloji varlıqlarla mifologiyada yer almışdır. Maddi mədəniyyət nümunələrində rast gəlinən keçi təsvirləri kompozisiyalarda əsasən "nəsil artımı" və "məhsuldarlıq" rəmzi ilə bağlı ifadəsini tapmışdır. Keçi təsvirlərinin yanında, bəzən isə üzərində çərxi-fələk işarəsinə çox rast gəlinir. Bu da keçilərin "günəş" kultu ilə bağlılığını bir daha sübut edir.

Keçi qədim Azərbaycanın dəfn adətlərində tanrılara ən çox qurban gətirilən heyvanlardan sayılır. Qədim dövrlərdə Azərbaycan, Türkmən, Özbək, Qırğız tayfaları və s. arasında dağ keçisinin buynuzları müqəddəs sayılırdı. Keçinin buynuzları hələ daş dövründən (Özbəkistanın Teşik Taş mağarasında) başlayaraq axirət dünyası ilə bağlı ayinlərin yerinə yetirilməsində keçinin atributu kimi istifadə edilərək qəbirə qoyulmuşdur.

Qədim türklərin dünyagörüşlərində keçinin önəmli yer tutması, onun məhsuldarlıq rəmzi, buynuzlarının nəzəri, şəri sovuşdurmaq xüsusiyyətləri daşıması ilə bağlı inanclar mövcuddur. Bir çox hallarda isə keçi yenilməzlik rəmzi daşımaqla hakimiyyət simvolu olmuşdur.

---

[37] Seyidov, M.M. Qam-Şaman və onun qaynaqlarına ümumi baxış/ Seyidov M. – Bakı: Gənclik, –1994. – s. 29.

[38] Kitabi-Dədə Qorqud / –Bakı: Gənclik, –1971. – s. 35-36.

Keçi inamı ilə bağlı bir önəmli faktı qeyd etməkdə fayda görürük. M.Ə. Seyidov yazır ki, "Başadar kurqanındakı at keçi skafandrında dəfn edilmişdir". Atın keçi başı və ya buynuzu ilə mifləşdirilməsi, İssık kurqanlarından aşkar edilmiş «qızıl geyimli şahzadə»nin tacındakı təsvirdə yer almışdır. Pazrık kurqanlarında da atlar keçi başı ilə mifləşdirilmişdir.

Türk xalqlarının ümumi mifik obrazı olan "Dədə Qorqud" eposunda Banuçiçəyi Beyrək üçün diləməyə gedən Dədə Qorquda Bayındır xanın tövləsindən iki şahanə yuyrək at verilir. Bayındır xanın tövləsində olan iki şahbaz atın biri Toğlu başlı Duru ayğır, digər Keçi başlı Keçər ayğırdır.[39.]

At başının keçi, qoyun, maral kimi heyvanların başına bənzədilməsi qədim türk tarixi və etnoqrafiyası baxımından səciyyəvidir.

Türk mifologiyasında yer almış Umay tanrıça da keçi ayaqlı təsvir olunur. Göründüyü kimi atların və tanrıçaların qədim türk mifologiyasında keçi əlamətləri ilə təsviri, ehtimal ki, günəş tanrısı ilə bağlı olmuşdur.

Bunu da qeyd etmək yerinə düşər ki, ərazidə Təkəli tayfaları və Keçili adını daşıyan kəndlərin olduğu məlumdur. Keçi təsvirli tuğ bayraqlara Qərbi Azərbaycanın Artik, Aşağı Adıyaman kurqanlarında (e.ə. XVI-XIII əsrlər) və Cənubi Azərbaycanda rast gəlinmişdir. Keçi obrazının Azərbaycan tayfalarının tuğ bayraqları üzərində yer alması, bir daha keçinin əcdad kultu və hakimiyyət rəmzi olduğunu söyləməyə əsas verir.

At kultu qədim dövrlərdən, bu günümüzədək türk xalqlarının dini-ideoloji düşüncələrində yer almışdır. At kultu ilə bağlı dəfnlər, qəbirlərdə, maddi mədəniyyət nümunələri üzərində at təsvirləri, atla bağlı folklor mətnləri, o cümlədən nağıllar, rəvayətlər, dastanlar türk xalqları arasında geniş yayılmışdır.

Tədqiqatçılar e.ə. II minilliyə aid arxeoloji abidələrdə aparılan qazıntılar zamanı tapılan bütün at skeletləri və at ələhələri əsasında Azərbaycanda həmin dövrdə (xüsusilə e.ə. II minilliyin sonu I minil-

---

[39] "Kitabi-Dədə Qorqud" dastanı. Biblioqrafiya. Bakı-2015.URL: https://www.arxiv.mtx.az>...pdf Kitabi-Dədə Qorqud, s. 41.

liyin əvvəlləri) atçılığın yüksək inkişaf etdiyini göstərirlər. Atçılığın son tunc-ilk dəmir dövründə geniş miqyas alması bir çox dəlillərlə sübut olunur. Kurqan və daş qutu qəbirlərdə at skeletlərinə çox təsadüf olunur.

Azərbaycan ərazisində tədqiq olunan qəbir abidələri içərisində atların başları kəsilmiş dəfn adətinə də rast gəlinmişdir. Ata pərəstiş Azərbaycan ərazisindən əldə olunan müxtəlif maddi-mədəniyyət nümunələrində də özünü göstərir.

Azərbaycan və Qədim Şərqin dastan, nağıl və əsatirlərində, maddi mədəniyyət nümunələri üzərində mifoloji atların təsvirləri də yer alır. Türk xalqlarının bir çox folklor mətinlərində atlar xoş-bəxtliyə və ləyaqətə nail olmağın simvolu və mifoloji varlıqlar kimi göstərilirlər. Azərbaycan mifologiyasında da atlar bəzən qanadlı obrazlarla təsvir olunurlar. Heç şübhəsiz ki, bu tip təsvirlər səma ilə bağlı yaranıb, özündə solyar cizgili mifləri və müqəddəsliyi birləşdirmişdir.

Göründüyü kimi, qanadlı atlar türk xalqlarının mifoloji düşüncələrində səma və ilahi qüvvə ilə bağlı olub, baş tanrının – yaradanın sevib-seçilən heyvanları sırasına daxil olunur.

Qədim türk tayfalarının dini dünyagörüşlərində at kultu bir totem kimi mənəvi enerji, fiziki qüvvə, namus-qeyrət rəmzi olmuşdur.

Azərbaycan petroqliflərində – qayalar üzərində çox geniş yayılmış təsvirlərin bir hissəsi maral obrazları ilə bağlanır. Maral təsvirli kompozisiyalarda çox vaxt "Günəş" və "Həyat ağacı" simvolu da yer alır. Bu da maralın "günəş" və "dünyanın məhvəri" ilə əlaqəsinə bir işarədir.

Hakimiyyət və əcdad kultunu özündə simvollaşdıran maral obrazlı tuğ bayraqlarda da əksini tapır. Bu tip tuğ bayraqlar ərazidə yaşayan tayfaların əcdad rəmzi sayıla bilər. Belə tuğ bayraqlardan biri e.ə. XV-XIV əsrlərə aid Şəmkir rayonunun Qaracəmirli kurqa-nından əldə olunmuşdur.

Maral təsvirli tuğ bayraqlara Qərbi Azərbaycanda da rast gəlinmişdir. Ümumiyyətlə ərazi üçün xarakterik olan maral özündə əsasən əcdad kultu, günəş və hakimiyyəti rəmzi olan obrazı simvollaşdırır. Azərbaycanın tunc dövrü tayfalarının dini inancları

özünü dəfn adətlərində də göstərir.

Maral basdırma adəti Xanlar (Göygöl) rayonunun cənub-qərb hissəsində yerləşən 148 və 150 saylı son tunc dövrü qəbir abidələrindən məlumdur. 150 saylı qəbirdə ağacdan düzəldilmiş simvolik araba modelinin baş hissəsində qoşa maral skeletlərinə təsadüf olunmuşdur. Maralların buynuzlarının üzəri ağ pastadan hazırlanmış muncuqlar və tuncdan hazırlanmış ayparalarla bəzədilmişdir.[40] Ehtimal ki, bu dəfn adəti həmin dövrdə marala olan etiqadla yanaşı, "əcdad" kultu ilə də birbaşa bağlı olub, ritual xarakter daşımışdır. Elə həmin səbəbdən də, maralın rəsmləri çəkilib, fiqurları hazırlanmışdır.

Azərbaycan ərazisində yaşamış əkinçi-maldar tayfalara məxsus maddi mədəniyyət qalıqları içərisində qoç fiqurlarına, qoç və qoçu özündə simvollaşdıran qoç buynuzu təsvirlərinə çox rast gəlinir. Ümumiyyətlə, Qədim Şərqdə heyvanın buynuzları hakimiyyət rəmzi sayılırdı. Bəlkə də, elə bu səbəbdən qoç buynuzu işarəsi qədim dövrlərdə hansısa əkinçi-maldar tayfanın damğası kimi saxsı qablar və digər maddi-mədəniyyət nümunələri üzərində öz əksini tapmışdır.

Azərbaycan ərazisində qədimdən qoça etiqadın güclü olmasını qoç fiqurları və Qobustanda Kiçikdaş abidəsinin 15 saylı qaya daşındakı qoç təsvirləri bir daha sübut edir. Həmin qaya üzərindəki təsvirdə iki qoç obrazı yer alır. Onların üzəri bucaq əmələ gətirən iki cərgə ziqzaqla orijinal şəkildə tamamlanmışdır. Öndə gedən qoçun üzərindəki birinci cərgədə yer alan ziqzaqın daxili döymə nöqtələrlə doldurulmuşdur. Bu da təsvirə xüsusi görkəm verir.[41]

Tunc dövrü qəbirlərində qoç sümüklərinə çox rast gəlinir. Ümumiyyətlə, qoç və keçi mifologiyada yer tanrılarının heyvanları sayılır.

Azərbaycan nağıllarında qoçla bağlı bir çox rəvayətlər

---

[40] Гуммель, Я. И. Раскопки к юго-западу от Ханлара в 1941г. // – Москва: Наука, –Вестник древней истории , –IV т. –1992,. –с. 11.

[41] Джафарзаде, И. М. Гобустан (наскальные изображения) / Джафарзаде И. М. –Баку: Элм, –1973. – с. 324.

mövcuddur. Nağıllarda qoçların iki obrazı “qara və ağ qoç” öz əksini tapır. Həmin dualist baxışlarda qara qoç insanı axirət dünyasına yola salan, ağ qoç isə insanı işıqlı dünyaya çıxaran obrazlarda mifologiyada yer alır. Qoç obrazı həm də qədim cəmiyyətlərin dünyagörüşlərində “Günəş” və “Ay” kultlarını özündə simvolizə edir.

Pişik təsvirinə qəbir abidələrində, qaya təsvirləri üzərindəki kompozisiyada rast gəlinmişdir. Pişik kultu əlamətlərinə Azərbaycanın tunc dövrü kurqan qəbirlərində, o cümlədən Göygöl rayonunun 206 saylı qəbrində təsadüf olunmuşdur.

Azərbaycan tayfalarının inanclarında balıqla bağlı təsəvvürlər də geniş yayılmışdır. Balıqla bağlı təsəvvürlərə qayalar, tunc kəmərlər və qəbirüstü abidələr şəklində rast gəlinir.

Qərbi Azərbaycan ərazisinin (indiki Ermənistan) vişap və vişapabənzər abidələri Texam və Arqas dağlarındadır. Qafqazda quraşdırılmış kurqan abidələrində təsadüf olunan bir çox vişapların üzərində müxtəlif heyvan təsvirləri yer alır. Vişaplar mifologiyada“su” və “su fəlakəti” ilə bağlanılır.

Tısbağa kultu qədim Çində, Yunanıstanda və s. ölkələrdə geniş yayılmışdır. Məlumdur ki, Asiya xalqlarının mifologiyasında tısbağa obrazı özündə günəşin diskini simvollaşdırmışdır. Bu kultun varlığı əkinçi və maldar tayfalar üçün çox təbiidir. Çünki onların təsərrüfatı günəş və təbiətlə birbaşa bağlı olmuşdur. Bütün bunlar onu göstərir ki, tısbağa obrazı həm günəş, həm də odu özündə simvollaşdırmışdır..

Gəncəçay ərazisində bəzi qəbirlərin tədqiqi zamanı insan skeleti ilə bərabər tısbağa çanağı üzə çıxarılmışdır.

Əjdaha və ilan Azərbaycan tunc dövrü dekorativ tətbiqi sənətində çox geniş yayılmış obrazlardandır. Dövrün tayfalarının dini inanclarının nəticəsi olan əjdaha və ilan təsvirləri dini-ideoloji baxışların, incəsənətin, mifoloji-fəlsəfi təfəkkürün yranmasında iştirak edən mənfi və müsbət obrazlarlada maddi mədəniyyətdə ifadəsini tapmışdır.

İlan təsvirinə maddi mədəniyyət nümunələri üzərində, o cümlədən tunc kəmərlər, bilərziklər, keramika məmulatları və qaya təsvirləri üzərində çox rast gəlinir.

Azərbaycanın arxeoloji abidələrində tunc dövrü insanının dini-ideoloji dünyagörüşlərində geniş yer almış “güc və hakimiyyət” rəmzi daşıyıcısı sayılan şir obrazına da rast gəlinir.

Azərbaycan xalqının mənəvi-mədəniyyətini özündə qoruyub saxlayan şir fiqurları da ərazidə çox yayılmışdır. Belə fiqurlardan biri Şəmkir rayonu Qaracaəmirli kurqanından məlumdur. Bu e.ə. XV-XIV əsrlərə aid şir fiqurlu tunc cəmdir. Analoqu olmayan həmin tapıntı Azərbaycan tunc dövrü tayfalarının hakimiyyət rəmzini və yüksək sənətkarlıq mədəniyyətini simvollaşdırır.

Şir kultu ilə bağlı ən maraqlı tapıntı Şəmkir rayonunun Qaracaəmirli kurqanından məlumdur.[42] Həm şir kultu əlamətlərini, həm də hakimiyyət rəmzini özündə simvollaşdıran tuncdan hazırlanmış tuğ bayraq insan üzərində əzəmətlə dayanmış şir fiqurunu simvolizə edir.

Şir obrazlarına Azərbaycan qaya təsvirləri, metal məmulatları üzərində də rast gəlinir.

E.ə II minilliyinin sonu I minilliyin əvvəllərində Azərbaycan ərazisində yaşamış qədim tayfaların dünyagörüşlərində fəlsəfi, mifoloji xüsusiyyətləri ilə seçilən yeni obrazlı bədii sənət əsərləri yaranır. Müxtəlif heyvan obrazlarının bədən hissələrinin vəhdətindən yaranan sintetik obrazlarından biri də qrif və qrifonlardır.

Zağalı kəndi Naxçıvanın Culfa rayonu ərazisində yerləşir. Zağalı kəndindən təsadüfən tuncdan tökülmüş iki ədəd qrifon tapılmışdır. Qrifonun yuxarı hissəsi qartal başını, aşağı hissəsi isə həm qartal, həm də şir ayağını xatırladır. Belə ki, Zağalı qrifonlarının analoquna Şumer-Akkadlara məxsus Suzdan Kudurru adlanan yerdən tapılan qəbirüstü daş kitabə üzərində rast gəlinmişdi. Kitabə e.ə. XII əsrə aid olunur.[43] Qrifonlardan sağdakı, görnüşünə görə eyniylə Zağalı qrifonlarını xatırladır.

---

[42] Quliyev, F.E. Azərbaycanın kurqan qəbirlərində at dəfni. Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrqafiya İnstitutu. Bakı, Elm, 2008, s. 295.

[43] Мифы народов мира / Энциклопедия, Москва, – Советская Энциклопедия, – т. I. 1991.

Zağalı qrifonlarını daha qədim dövrə – son tunc dövrünə aid etməyə əsas verir. Ümumiyyətlə, qrifonların baş hissələri qartal başını, bədən və ayaqları isə şir ayağını xatırladır. Qədim Azərbaycan tayfaları arasında da mifik obraz sayılan qrifonlar özündə güc və hakimiyyəti simvollaşdırmışdır. Zağalı qrifonları mütəxəssislər dəmir və son antik dövrünə aid edilir.[44]

Beləliklə, əldə olunan materiallara əsaslanaraq deyə bilərik ki, qrifon təsvirləri Azərbaycan incəsənətinə və mifologiyasına hələ son tunc dövründə Şumer-Akkad mifologiyasının təsiri nəticəsində daxil olmuş və sonrakı tarixi dövrlərdə "Avesta" da Əhriman obrazı kimi dini inanclarda yer almışdır.

Azərbaycanın qədim dövr arxeoloji maddi mədəniyyət nümunələri arasında quş təsvirli artefaktlara az təsadüf olunmur. Ərazidə təsadüf olunan quş təsvir və fiqurlarının bir çoxu bəzən həddən artıq şərti və sxematik şəkildə verilmişdir. Azərbaycanın arxeoloji abidələrində, nağıl və əfsanələrdə təsadüf olunan quşlar həyatda mövcud olmayan simvolik və fantastik təsvir olunmuş mifoloji varlıqlardır.

Tədqiq olunan dövrlərdə ruhun varlığı ilə bağlanan quş obrazları insanların mifoloji düşüncələrində geniş yayılmışdır. Bəzən mifoloji mətnlərdə və xalq deyimlərində insanın ruhu quşa bənzədilir. Dünya mifologiyasında ruhun ölməzliyi və tükənməz fəzada uçması öz geniş şərhini tapmışdır. Quş obrazları qədim dövrdə tanrı obrazında ifadə olunurdur. Elə həmin səbəbdən də maddi-mədəniyyət nümunələri üzərində tanrının və onun köməkçilərinin quşa bənzər obrazları geniş yayılmışdır.

"Oğuz kağan" dastanında Oğuzun oğullarının hamısının onqonu vəhşi quşlardır.

Azərbaycan mifologiyasında quşlardan, əsasən, qartal və şahin güc, hakimiyyət simvolu kimi təqdim olunur. Maddi mədəniyyətdə şahların ruhu, əsasən, qartal obrazında verilir. Şahinlər daha şox Oğuz tayfalarının əcdad kultunda yer alır. Məsələn: Ağ şahin Avşar tayfalarının onqonlarından biri sayılır.

[44] Əliyev, V.H. Ağazadə, T.D. Zağalı kəndindən tapılmış tunc qrifon haqqında //– Bakı: Elm, –Azər. SSR EA Xəbərləri, –1986, №3, –s. 75, 79.

Bəlkə də, elə bu səbəbdən Azərbaycanda hərb işinin atributlarından sayılan tuğ bayraqların üzərində quş obrazları ifadəsini tapır.

Şəmkir və Qərbi Azərbaycandan əldə olunmuş quş fiqurlu tuğ bayraqlar da ərazidə quş-əcdad kultunun varlığından xəbər verən dəyərli mənbələrdir.

V fəslin yeddinci paraqrafında **«Maddi mədəniyyətində "Həyat ağacı" simvollarının əksi"araşdırılır.** Qədim türk və Azərbaycan tunc dövrü incəsənət nümunələri üçün xas olan təsvirlərdən biri də, "Dünya məhvəri"nin mövcudluğu mənasını kəsb edən, tunc dövrü tayfalarının mifoloji dünya görüşlərində geniş yer almış, genealoji, semantik təsəvvürlərini özündə əks etdirən "Həyat ağacı" simvoludur. Bu təsvir maddi mədəniyyət nümunələri üzərində (qaya, keramika, metal məmulatları) kompozisiyaların daxilində təsadüf olunur. "Həyat ağacı" etnoloji simvolu mifoloji xüsusiyyətlərə görə məcazi olaraq qəbul olunsa da, maddi mədəniyyət nümunələri üzərində obrazlı, semantik şəkildə bir-biri ilə bağlanır və bir-birini tamamlayır.

Məlum olduğu kimi, "Oğuznamə" dastanında (türk dilli qəbilələrin mifik təfəkkürünə əsasən) Oğuzun ikinci dəfə ağac-bitki ilahəsi ilə evlənməsi öz əksini tapır.

Yakutların "Ağ oğlan"la bağlı mifik dastanında Ulu Ağac özündə tanrı, ilahə obrazını yaşadır, həm də "Müqəddəs ruh"un daşıyıcısı kimi dastanda yer alır. O, "Dünya məhvəri"nin sahibi, dünyanın və ilk insanın yaradıcısı, nəsilartımı ilahəsidir. Onun saçları Ayla müqayisə olunur. Bəlkə də o, elə "Umay" tanrıçanın özüdür. Məlumdur ki, «tanrı» obrazlarında türk folklor nümunələrində yer alan mədəni qəhrəmanlar mifologiyada müxtəlif adlar altında cəmləşirlər.

Azərbaycanın Laçın rayonunda antik dövrə aid olunan "Ağoğlan" adlı Alban məbədi bu gün də qalmaqdadır. Antik dövrdə ərazidə yaşayan (xristianlığı qəbul etmiş) türk mənşəli tayfaların qədim əfsanələrini nəzərə alsaq, məbəd daha qədim politeist məbədin yerində tikildiyini güman etmək olar. Belə ki, qeyd etdiyimiz kimi, antik dövr Alban məbədləri, əsasən, qədim politeist məbədlərin üzərində inşa olunurdur.

“Həyat ağacı”nın anlayışı və mənşəyi məsələsinə gəldikdəsə, bunu qeyd etmək lazımdır ki, təsvir tunc dövrü tayfalarının dini təsəvvürləri ilə bilavasitə bağlı olmuşdur.

Həmin kult, Azərbaycanın bir çox bölgələri, o cümlədən, qərb bölgəsində öz ilkin mahiyyətini bir qədər itirsədə, onların adət-ənənələrində, əsasən islamdan sonrakı dini düşüncələrində formalaşmış, toy mərasimlərinin “şah qaldırma” atributu kimi yer almışdır. Bu adət Azərbaycanın bir çox bölgələrində bu gün də qalmaqdadır. Bunu da qeyd etmək yerinə düşərdi ki, hələ də, bu simvoldan müxtəlif sənət nümunələrinin naxışlanmasında istifadə olunur.

Dissertasiyanın **“Nəticə”** adlanan hissəsində aparılmış tədqiqat işinə yekun vurulmuş, araşdırmalar ümumiləşdirilmişdir.

Araşdırmalardan məlum olduğu kimi ərazidə baş vermiş iqtisadi dəyişikliklər, ictimai-siyasi hadisələr, dini-ideoloji baxışlar, mədəni proseslər arxeoloji abidələrdə və həmin abidələrdən əldə olunan maddi-mədəniyyət nümunələrində daha aydın və obrazlı şəkildə izlənilir.

Məlumdur ki, e.ə. III minillikdə Azərbaycan və onun tarixi ərazilərində erkən tayfa ittifaqlarının yaranması, müxtəlif ad daşıyan dövlət qurumlarının meydana gəlməsi, ərazinin iqtisadi, ictimai, siyasi həyatında böyük dəyişikliklər və tayfalararası münaqişələrin artmasına səbəb olmuşdur.

Belə ki, arxeoloji qazıntılar zamanı eneolit və tunc dövründə yaşamış tayfaların tikinti yaradıcılığını və planlaşdırmasını göstərən müxtəlif mərhələlərə aid abidələr içərisində zəngin mədəni təbəqələri və maddi mənbələri ilə seçilən abidələrə çox təsadüf olunur.

Eneolit dövründən başlayaraq “Günəş”, “Ay” və “Od”a tapınan Azərbaycanın qədim cəmiyyətində böyük dəyişikliklər baş vermiş, oda sitayişlə bağlı ibadətgahlar və məbədlər tikilmiş, dini mərasimlər keçirilmişdir.

Ərazidə tədqiq olunan qəbir abidələrinin çoxunda (mezolit, neolit, eneolit və tunc dövrü) kaspi antropoloji tipinə aid insan qalıqlarına rast gəlinir. Bu da ərazidə yaşayan tayfaların etnik mənsubiyyətinin müəyyənləşdirilməsində əvəzsiz mənbə sayılır.

Sinifli cəmiyyətin mövcudluğu və insanların müəyyən qisminin rifahının yüksəlməsi qəbir abidələrində özünü açıq şəkildə göstərir. Dəfn adətlərində axirət dünyası ilə bağlı animizmin, dualizmin, fetişizm kimi müxtəlif inanclar – günəş, ay və oda tapınma ilə bağlı təsəvvürlər daha da güclənir.

Zəngin mifoloji sistemə malik xalqlarda olduğu kimi Azərbaycanın eneolit və tunc dövrü tayfalarının arxeoloji irsində də kosmoqonik dünyagörüşləri, dünyanın yaranışı ilə bağlı miflər üstünlük təşkil edir.

Ərazidə tədqiq olunan qəbir abidələrinin daş düzümündə, maddi mədəniyyət nümunələri üzərində kosmik aləm və yaranışı özündə xarakterizə edən aypara və günəş formalı təsvirlərə çox rast gəlinir.

Kültəpə, Əliköməktəpə, Çalağantəpə, Babadərviş abidələrinin eneolit dövrü təbəqələrində tədqiq olunan qəbirlərdə ölən insanların üzərinə "günəş-od" əlaməti olaraq (ruhu şər qüvvələrdən qovmaq məqsədi ilə) qırmızı oxra səpilir. Tunc dövründə ənənənin davamı olaraq, həmin dini dünyagörüşü insanlarının qəbirlərdə "günəş-işıq" əlaməti kimi od yandırması ilə nəticələnir.

Orta və son tunc dövrü Borsunlu, Bəyimsərov, Sarıçoban, Ördəkli, Qaracəmirli və s. kurqanlarda tədqiq olunan tayfa başçılarına aid qəbirlər həmin dövrdə güc strukturları və dini dünyagörüşlərinin, dəfn adətlərinin yüksək səviyyədə inkişafından və Azərbaycanın Yaxın Şərqlə əlaqələrindən xəbər verir.

Tayfalararası dini və mifoloji inanclarında daha geniş yayılmış "ölülər kultu" özünü heyvanlara aid qəbir abidələrində izlənilən dəfn adətlərində də göstərir. Bu da ərazidə əcdadlar kultunun və dini təsəvvürlərin geniş yayılmasından xəbər verir və sonunda qəbirlərin müqəddəs yerlərə çevrilməsinə gətirib çıxarır. Heyvanların dəbdəbəli dəfni-əcdad kultu ilə bağlı izlər Azərbaycanın tunc dövrü arxeoloji abidələrində geniş yer alır.

Qədim istehsal ocaqlarında təsadüf olunan istehsal tullantıları, alətlər bir daha bu ərazilərin qədim dövrlərdə Yaxın Şərqin dulusçuluq və metalişləmə mərkəzlərindən biri olduğunu göstərir. Həmin maddi mədəniyyəti yaratmış tayfaların mənəvi irsi

əsasən yaşayış yerləri, qəbir abidələri və həmin abidələrdən əldə olunan dulusçuluq, metalişləmə, daş işləmə, sümük işləmə sənət nümunələri və bu sahələrdə əldə olunan texniki naliyyətlərlə xarakterizə olunur.

Azərbaycanın qədim dekorativ tətbiqi sənəti daha çox tayfaların dini dünyagörüşlərini və bədii zövqünü özündə təcəssüm etdirir. Maddi mədəniyyət nümunələri üzərində olan təsvirlər, əsasən, özündə qədim simvolları (insanların kosmik aləmə, təbiətə münasibəti və s.) mifoloji baxışları yaşadır. Həmin simvolların və mifoloji baxışların açılışı Azərbaycan xalqının qədim dövr mənəvi mədəniyyətinin bərpası deməkdir.

Tədqiqatlar qaya təsvirlərində qədim türkdilli tayfaların etiqadlarının geniş yer aldığını göstərir. Qaya təsvirlərində şamanların zoomorf və onqon anlayışı ilə (totemizm) əlaqədar olan müxtəlif süjetli kompozisiyalara rast gəlinir.

Eneolit dövrü arxeoloji abidələrdə yer almış qadın obrazları vasitəsi ilə, ideoloji baxışları, fəlsəfi duyumları və incəsənəti bir araya gətirə bilmiş sənətkarlar dövrə xas olan tərzdə, özünə məxsus, mifoloji xüsusiyyətləri ilə seçilən mücərrəd formalı ana obrazını ön plana çəkirlər.

Tədqiqata cəlb olunan dini incəsənət nümunələri, ibadətgahlarda keçirilən ayin elementləri olmaqla yanaşı, dövrün tayfalarının mənəvi mədəniyyətin tərkib hissəsi olaraq, məhz qadın heykəlciklərində bir-birini tamamlayır. Eneolit dövründə qadın heykəlcikləri ilə yanaşı, ibadət xarakterli müqəddəsləşdirimiş heyvanların, o cümlədən öküzün fiqurları hazırlanır. Həmin fiqurlardan dini ayinlərin yerinə yetirilməsində istifadə olunması müşahidə olunur. Bunu ibadətgahlarda yandırılmış heyvan fiqurları bir daha təsdiq edir.

Tədqiq olunan dövrlərdə “Kainatın yaradıcısı” və “Günəş-Ay-Od”, heyvanları, quşlar, mifoloji sintetik varlıqlar və “Həyat ağacı” ilə bağlı təsəvvürlər dini-mifoloji dünyagörüşün mühüm tərkib hissəsinə çevrilir. Elə həmin səbəbdən də maddi-mədəniyyətdə onların təsvirlərinə mühüm yer verilir. Əcdadla bağlı təsəvvürlər ön plana çəkilir.

Folklor mətnlərində olan mədəni qəhrəmanlar və arxeoloji

abidələrdə təsadüf olunmuş əcdadla bağlı artefaktlardan məlum olur ki, arxaik eposlar dünyanın və insanın yaranışı ilə bağlı olan fəlsəfi düşüncələri özlərində yaşadır. Aparılan tədqiqatlar qədim tayfaların yerin altında yatan mifoloji dünyagörüşləri ilə (maddi və mənəvi mədəniyyət nəzərdə tutulur) folklor mətnləri arasında ümumi bir bağlılıq olduğunu göstərir. Bu da ümumtürk eposlarının daha qədim dövrlərə söykəndiyini söyləməyə əsas verir.

Maddi və mənəvi mədəniyyətlərin müqaisəli təhlili eneolit və tunc dövrü cəmiyyətlərində ictimai quruluşda dəyişiklərin olduğunu göstərir.

Beləliklə, ərazidə uzun illər aparımış arxeoloji qazıntılar burada tədqiq olunan dövrlərə aid mədəniyyətlərin bir-biri ilə varislik bağlılığını və əsasən yerli zəmin üzərində qurulduğunu sübut edir.

Tədqiqatdan göründüyü kimi, Arxeoloji abidələrində və folklor mətinlərində geniş yer almış öküz, şir, at, keçi, maral, qurd, tısbağa, it, ilan, əcdaha, balıq, quş, ağac və s. obrazlar müxtəlif tərzdə mifologiyada təqdim olunsa da, eyni xüsusiyyətləri özündə xarakterizə edir, sonunda hamısı “Kainatın yaradıcısı” və “Günəş”, “Ay”, “Od” tanrıları ilə bağlanır, kainat və hər biri yaranışla bağlı olan kultlardan birinə çevrilərək qədim tayfaların mənəvi mədəniyyətinin xarakterik xüsusiyyətlərindən biri kimi formalaşır.

## Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi işlərində öz əksini tapmışdır:

1. Azərbaycanın son tunc və ilk dəmir dövrü tayfalarının ideoloji baxışları // – Bakı: Azərbaycanın Arxeologiya və Etnoqrafiyası, – Nafta-Press, – №1. – 2006.– s.74-81.
2. Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının bədii tunc məmulatı (e.ə. XIV-VII əsrlər) / – Bakı: Nurlan, – 2007. – 190 s.
3. Azərbaycan maddi-mədəniyyət nümunələrində quşların təsviri. 2006-2007-ci illərdə Azərbaycanda aparılmiş arxeoloji və etnoqrafik tətqiqatların yekunları // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, Arxeologiya və Etnoqrafiya İnstitutu. A.A.Abbasovun anadan olmasının 70 illiyinə həsr olunmuş Elmi sessiyanın materialları, Nafta-Press, – 2007. – s. 61-63.
4. Azərbaycanın qədim dövr qadın təsvirləri incəsənət nümunəsi kimi // – Bakı: Bakı Dövlət Universitetinin 90 illik yubileyi münasibəti ilə elmi-praktik konfransının materialları, Bakı Universiteti nəşriyyatı, – 2009. – s. 174-180.
5. Azərbaycanın arxeoloji abidələrindən əldə olunmuş bədii keramika məmulatı (tunc və ilk dəmir dövrü) // – Bakı: Azərbaycan Arxeologiya və Etnoqrafiyası, Nafta-Press, – 2009, №1, – s. 41-46.
6. Azərbaycanın qədim dövr maddi-mədəniyyət nümunələrində astral işarələr və təsvirlər // – Bakı: Azərbaycan Arxeologiyası, Khazar University Press, – № 1. – 2009. –s. 73-82.
7. Вишапотипные памятники Азербайджана // – Тбилиси: «Археология, Этнология, фольклористика Кавказа». Международная научная конференция. Сборник кратких содержаний докладов, Меридиани , – 2009. – с. 328-330.
8. Azərbaycanın tunc dövrü tayfalarının hərb işi // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu. Azərbaycanın Arxeologiya və Etnoqrafıyası, Nafta-Press, – №1 –2011. –. s. 53-62.
9. Azərbaycanın kütləvi rəqsi “Yallı” arxeoloji mənbələrdə // –

Bakı: Azərbaycan Tarix qurumu, BDU Tarix fakültəsi, Türk dünyası: Dünəni və bu günü. Beynəlxalq elmi konfransın materialları, Victori, – 2011. – s. 227-232.

10. Azərbaycanın eneolit dövrü abidələrinin öyrənilmə tarixinə dair // – Bakı: Azərbaycan arxeologiyası, Nafta-Press, – cild:16, say: 2. – 2013.– s. 63-71.
11. Qrifonlar və qriflər qədim dövrün maddi-mədəniyyət nümunələrində // – Bakı: Azərbaycanın görkəmli şərqşünas alimi, professor Aida İmanquliyevanın 75 illik yubileyinə həsr olunmuş "Şərqşünaslığın aktual problemləri" mövzusunda Respublika elmi konfransının materialları. Nurlar, – 2014. – s. 272-274.
12. Azərbaycanın eneolit və tunc dövrü abidələrində dulusçuluq və metalişləmə // – Bakı: AMEA, Arxeologiya və Etnoqrafiya İnstitutu, Azərbaycan Arxeologiyası və Etnoqrafıyası, Nafta-Press, – №1. – 2014.– s. 54-63.
13. Azərbaycan tayfalarının ibtidai icma dövrü inanclarında semantik məna daşıyan naxış və işarələr // – Bakı: Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Dövlət Universiteti. Azərbaycan arxeologiya və etnoqrafiyasının aktual problemləri, Füyuzat, – 2014. – s. 85-97.
14. "Həyat ağacı" simvolu Azərbaycanın tunc dövrü maddi-mədəniyyət nümunələrində // Bakı: – Tarix və onun problemləri, Bakı Dövlət Universitetinin 95 illik yubileyinə həsr olunmuş xüsusi buraxılış, Adiloğlu, – №4. – 2014.– s. 282-295.
15. О роли коня на некоторых материальных культурах Азербайджана // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası. Naxçıvan Muxtar Respublikasının 90 illiyi. Azərbaycan arxeologiya və etnoqrafiya elmlərinin inkişafında Naxçıvan məktəbinin rolu. Elmi konfransın materialları, Afpoliqraf, – 2014. – s. 13-15.
16. «Культ огня» в веровании Азербайджанских племен энеолита и бронзового века // – Kyyiv: Видавництво Гілея, Natsionalnyy pedahohichnyy universytet imeni M.P. Drahomanova. VHO Ukrayinska Akademiya. Hileya naukovyy visnuk zbirnuk naukovykh prats.– Vypusk 111 (№8). – 2016.– с. 134-137.

17. «Культ оленя» в верованиях племен Азербайджана в эпоху энеолита и бронзы// –Ужгород-Дрогобич: Фундаментальные и прикладные исследования: современные научно-практические решения и подходы. Сборник материалов I Международной научно-практической конференции. – Баку-Ужгород-Дрогобич, Посвит, – 2016. – с. 49-51.
18. Xocalı kəmərləri. “Qarabağın arxeoloji irsi” // – Bakı: Beynəlxalq Elmi Konfransın Materialları. AMEA, Arxeologiya və Etnoqrafiya İnstitutu, Xəzər Universiteti – 2016. – c.53-54.
19. Qədim Azərbaycan tayfalarının öküz və it dəfnlərində mifoloji xüsusiyyətlər // – Bakı: Bakı Dövlət Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, Bakı Universiteti, – №2. – 2017.– s. 83-90.
20. Azərbaycanın eneolit dövrü dəfn adətlərində izlənilən inanclar // – Bakı: Bakı Dövlət Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, Bakı Universiteti, – №4. – 2017.– s. 68-75.
21. Azərbaycanın tunc dövrü müdafiə qalaları // – Bakı: Tarix və onun problemləri, Adiloğlu, –№ 3. – 2018.– s. 341-346.
22. Следы «Козьего культа» в археологических памятниках Азербайджана // – Алматы: Хабаршы Вестник, Казахский национальный педагогический университет имени Абая. Серия «Исторические и социально-политические науки». Издательство-Казахский национального педагогического университета имени Абая, Ulağat, – №4 (59). – 2018.– s. 352-358.
23. Qobustan təsvirlərində şamanizm əlamətləri // – Bakı: Elm və İnnovativ Texnologiyalar Jurnalı, Beynəlxalq Elmi Araşdırmalar Jurnalı, EİTJ, – №5. – 2018.– s. 22-39.
24. Ölülər kultu və dolixokran tapıntılar (Azərbaycan və onun tarixi ərazilərində aparılmış arxeoloji qazıntılar əsasında) // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İctimai elmlər seriyası, Elm, – № 4. – 2018.– s. 81-89.
25. Azərbaycanın eneolit dövrü maddi-mədəniyyətində qadın kultu izləri // – Bakı: “Azərbaycanda arxeoloji və etnoqrafik

araşdırmalar”. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu. AMEA-nın həqiqi üzvü Teymur Əmiraslan oğlu Bünyadovun anadan olmasının 90 illiyinə həsr olunmuş Elmi sessiyanın materialları, Afpoliqraf, – 2018. – s. 13-15.
26. Azərbaycanın tunc dövrü qəbirlərində “Günəş” inancı izləri // –Bakı: Azərbaycan Arxeologiyası, Khazar University Press, – №1. – 2019.– s.85-90.
27. The image of the wolf in the material culture of the bronze age in Azerbaijan // – Москва: Вопросы Истории, Красная Звезда. DOI: 10.31166 / Voprosy Istorii 202004 Statyi11, – №4. – 2020.– c.129-136.
28. The reflection of “Bull” cult at the Bronze Age material culture of Azerbaijan // – London: – Psychosocial. International Journal of Psychosocial Rehabilitation, – Vol. 24. – 2020.– p. 5391-5403.
29. Traces of the “Sun” belief in the tombs of the bronze age of Azerbaijan // – Revista Universidad&Sociedad, – 12 (6); Nov. – 2020.– p. 278-281.
30. Rastros de la creencia del “Sol” en las tumbas de la edad de Universidad de Cienfuegos // – Cuba: 2020. Web of Science http: // orcid. orq/ 0000-0003-3747-0156.
31. Azərbaycanın qədim maddi mədəniyyətində qadın kultu və onun mərasimlərdə əksi // – Bakı: Tarix və onun problemləri, Adiloğlu, – №4. – 2021.– s.232-238.
32. Духовая культура античных племен Азербайджана в письменных и археологических источниках // – London: The world of science and innovation. Proceedings of X international scientific and practical conference, United Kingdom, – 2021. – c. 230-238.
33. Traces of the “Moon kult” on ancient monuments of Azerbaijan // – France: Journal of science Lyon, –2022. – s.13-20.
34. Azərbaycanın tunc və antik dövr qəbir abidələrində qeydə alınmış bəzi anoloji xüsusiyyətlər // – Bakı: Tarix və onun problemləri. Şuşa-70, Adiloğlu, – №4. – 2022.– s. 227-231.

35. "At kultu" ilə bağlı təsəvvürlər Azərbaycanın arxeoloji abidələrində // – Bakı: Azərbaycanda Arxeologiya, Etnoqrafiya və Antropologiya elmlərinin prioritet məsələləri. Respublika elmi Konfransı, – Afpoliqraf, –2023. – s. 225-227.
36. Xocal-Gədəbəy tayfalarının maddi-mədəniyyətində qrifon təsvirləri // – Bakı:Tarix və onun problemləri, Adiloğlu, – 2023. – s. 209-213
37. Xocal-Gədəbəy tayfalarının maddi-mədəniyyətində qrifon təsvirləri // – Bakı: Tarix və onun problemləri, Adiloğlu, – №1. – 2023.– s.209-213

Dissertasiyanın müdafiəsi 20 oktyabr 2023-cü il tarixində saat 10-00 da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.30 saylı Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Az.1143, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının A.A. Bakıxanov adına Tarix İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat ____ _____ _____2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 18.09.2023

Kağızın formatı: A5

Həcm: 86379

Tiraj: 100